Xalqın qəzeti!

# Xalq qəzeti

№ 165 (30859) 9 avqust 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan Prezidentinin Vaşinqton səfəri tarixi uğurlarla nəticələnib



**Avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp qarşıladı.

Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar.

**(ardı 2-ci səhifədə)**



## Birinci vitse-prezident Mehriban Əliyeva Vaşinqtonda keçirilən görüşə dair paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda qeyd edilir:

"Bu gün Vaşinqtonda Azərbaycan Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın Baş naziri tərəfindən Birgə Bəyannamə imzalandı və sülh sazişi paraflanmaqla yekun sülh sazişi istiqamətində mühüm addım atıldı.

Bu tarixi hadisə münasibətilə xalqımızı təbrik edirəm!

Qoy, hər zaman sülh olsun! Torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman oğullarımıza Allah rəhmət eləsin! Uca Tanrı hər zaman doğma Azərbaycanımızı qorusun!".

## Qafqazda "Vaşinqton saatı" işə düşür

*Sülh üçün son şans və ya Cənubi Qafqazın yeni təhlükəsizlik arxitekturası*




**Bəzən siyasi proseslər bir sənədin üzərində qərarlaşmır. Bəzən bir görüş, bir masa ətrafındakı duruş – bütöv bir regionun konturlarını dəyişə bilər. Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə baş tutan bu görüş belə anlardan biridir. Prezident İlham Əliyevin Ağ evdə qəbul olunması regionun – xüsusilə, Cənubi Qafqazın – diplomatik xəritəsində mühüm dəyişiklikdir. Üstəlik, bu görüş masaya yalnız iki dövlətin münasibətlərini yox, üç onillikdən artıq davam etmiş bir münaqişənin nəticəsini, onun mümkün sülh formulasını, gələcək əməkdaşlıq arxitekturasını da gətirir.**

ardı səhifə ⇨ 3

## BTQ və Zəngəzur dəhlizi bir-birini tamamlayacaq




səhifə ⇨ 5

## Makronun Əlcəzair səhvi



səhifə ⇨ 11

## Rumıniyanın Prezidenti Zati-aliləri cənab Nikuşor Dana

**Hörmətli cənab Prezident!**

Rumıniyanın keçmiş Prezidenti, görkəmli dövlət xadimi İon İliyeskunun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

İon İliyesku Azərbaycan Respublikası ilə Rumıniya arasında əlaqələrin təşəkkülünə və inkişafına, dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə böyük töhfə vermişdir. O, dəfələrlə Azərbaycana səfər etmişdir. Onunla görüşlərimi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Rumıniya xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 8 avqust 2025-ci il**

## Zatulinin "Kassandralığı"



səhifə ⇨ 6

# Azərbaycan Prezidentinin Vaşinqton səfəri tarixi uğurlarla nəticələnib

(əvvəli 1-ci səhifədə)

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini parafladılar və Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətini (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzaladılar.

Sonra liderlər mətbuata bəyanatlarla çıxış etdilər. Prezident Donald Tramp mətbuata bəyanatında otuz ildən çox davam etmiş müharibənin hər iki dövlətə böyük ziyan vurduğunu xatırladaraq, istəyinin bölgədə sülhün və rifahın təmin edilməsi olduğunu vurğuladı. O, sülhün əldə edilməsi istiqamətində göstərdiyi qətiyyətə görə hər iki liderə təşəkkürünü bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında yeni tarixi səhifəyə imza atıldığını vurğulayaraq, Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın başladığını bildirdi. Dövlətimizin başçısı dünyanın ən böyük ölkəsi ilə strateji tərəfdaşlığı böyük imkan və böyük məsuliyyət kimi dəyərləndirərək, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkürünü ifadə edərək dedi: "Cənab Prezidentə təşəkkür edirəm ki, o Azərbaycana hələ 1992-ci ildə - Azərbaycanın müstəqilliyini bərpa etməsindən cəmi bir il sonra tətbiq olunan bu məhdudiyyəti 33 il sonra bu gün ləğv etdi. Bu gün bu, baş tutdu. Bu gün həqiqətən də Azərbaycan xalqının yaddaşına böyük şərəf və böyük təşəkkür kimi həkk olunacaq".

Azərbaycan Prezidenti Cənubi Qafqazda sülhün bərqərar olunmasının əhəmiyyətini yüksək qiymətləndirərək dedi: "Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik. Bu, nəinki bizim bölgəmiz, eyni zamanda, bütün dünya üçün böyük imkandır".

Dövlətimizin başçısı "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) bir sıra ölkələr üçün investisiya, sərmayə, sabitlik və rifah baxımından böyük imkanlar açacağını bildirərək, sülh danışıqlarının uğurla nəticələnməsində Prezident Trampın və onun komandasının fəaliyyətini xüsusi vurğuladı: "Prezident Tramp və onun komandası olmasaydı, bizim yaxın dostumuz cənab Uitkoff və onun komandası olmasaydı, yəqin ki, bu gün Ermənistan və Azərbaycan yenə tükənməyən bir danışıqlar prosesində qalardı".

Prezident İlham Əliyev Donald Trampın Nobel Sülh mükafatına layiq görülməsi üçün Nikol Paşinyan ilə birgə Nobel Sülh Komitəsinə müraciət etməyi təklif etdi və ABŞ Prezidentinin bu mükafata layiq olduğunu dedi.







Baş nazir Nikol Paşinyan isə mətbuata bəyanatında Ermənistan və Azərbaycanın ikitərəfli münasibətlər baxımından fundamental mərhələyə qədəm qoyduğunu qeyd edərək bildirib ki, bu mərhələ Prezident Trampın şəxsi iştirakı olmadan mümkün olmazdı.

Sülh sazişinin hazırlanması və imzalanmasının nəticə etibarilə iki ölkə arasında yeni mərhələnin açılması və ölkələrimiz arasında suverenliyin və ərazi bütövlüyünə hörmətlə yanaşılmasının başlanğıcı olduğunu qeyd edən Nikol Paşinyan bu tarixi günün ölkələrimiz və region üçün uğurlu olduğunu, bütün dünyanın bundan qazanacağını qeyd edib. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun tamamlanması və icra olunması kontekstində bir yerdə bərabər şəkildə çalışacağıq", - deyə Ermənistanın Baş naziri vurğulayıb.

Bəyanatlardan sonra Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannaməni imzaladılar.

Bəyannamədə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflandığı bildirilib, Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinin, sülhün təmin olunması və gücləndirilməsinin vacibliyi vurğulanıb.

Bundan başqa, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlanması, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında kommunikasiyaların açılmasının əhəmiyyəti bir daha təsdiq olunub. Bu səylərin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva etdiyi bildirilib.

Habelə Ermənistanın öz ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) üçün çərçivənin müəyyən edilməsi məqsədilə ABŞ və qarşılıqlı müəyyənləşdirilmiş üçüncü tərəflərlə əməkdaşlıq edəcəyi qeyd olunub.

Tərəflər BMT Nizamnaməsinə və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiqinin yolverilməzliyi əsasında qonşuluq münasibətlərinin qurulmasına şərtlərin yaradılmasının vacibliyini vurğulayıblar.

Bəyannamənin imzalanmasından sonra liderlər media nümayəndələrinin suallarını cavablandırıblar.

***AZƏRTAC***

## Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib



**Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib.**

Dövlətimizin başçısı müsahibədə ABŞ-a işgüzar səfərinin mühüm nəticələri, o cümlədən Prezident Donald Tramp ilə görüşü və Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə İşçi Qrupunun yaradılmasına dair sənədin imzalanmasının əhəmiyyəti, eləcə də Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvinin tarixi önəmi barədə sualları cavablandırıb.

Dövlətimizin başçısı, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanması, iki ölkənin liderlərinin Vaşinqton görüşünə dair Birgə Bəyannamənin imzalanması, ATƏT-in Minsk qrupunun ləğvi və sülh danışıqları ilə bağlı növbəti addımlar barədə fikirlərini bölüşüb.

Azərbaycan Prezidenti müsahibədə "Exxon" və SOCAR arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması, ölkələrimizin enerji sahəsində əməkdaşlığının yeni mərhələyə qədəm qoyması, Azərbaycanın daha güclü mövqelərə malik tranzit ölkəyə çevrilməsi istiqamətində atdığı addımlar barədə də danışıb.

***AZƏRTAC***

## Aİ sülh sazişinin paraflanmasını alqışlayır

**Avropa İttifaq Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanmasını alqışlayır.**

Bu barədə Avropa İttifaqı Şurasının sədri Antonio Kosta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen birgə bəyanatında deyilir.

Vurğulanır ki, bu sənədin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalaması həm Ermənistan, həm də Azərbaycan üçün mühüm hadisədir. Qeyd olunur ki, hər iki ölkə və bütün region üçün möhkəm, davamlı sülhə zəmin yaradır.

"Aİ Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini qətiyyətlə dəstəkləyir və hər şeydən əvvəl əhaliyə fayda gətirmək və bölgəni davamlı sülhə, sabitliyə və firavanlığa yaxınlaşdırmaq üçün regional qarşılıqlı əlaqəyə və tam açıqlığa investisiya qoymağa hazırdır", - deyə bəyanatda bildirilib.

***XQ***

## Türkiyə Vaşinqtonda atılan addımı məmnunluqla qarşılayıb

**Azərbaycanla Ermənistan arasında davamlı sülhün bərqərar olması istiqamətində əldə olunan irəliləyişi və bu çərçivədə avqustun 8-də Vaşinqtonda ifadə edilən iradəni məmnunluqla qarşılayırıq.**

Bu barədə Türkiyənin Xarici İşlər Nazirliyinin açıqlamasında qeyd olunub.

Beynəlxalq münaqişə və böhranların getdikcə artdığı bir dövrdə atılan bu addımı regional sülh və sabitliyin təmin olunması baxımından son dərəcə mühüm bir hadisə kimi dəyərləndirən Türkiyə XİN ABŞ Administrasiyasının prosesə verdiyi töhfələri yüksək qiymətləndirib.

"Cənubi Qafqazın sülh və rifaha çatması istiqamətində tarixi bir fürsət əldə olunub. Türkiyə olaraq, bu fürsətin reallaşdırılması üçün göstərilən səylərə töhfə verməyə davam edəcək və Can Azərbaycanın fədakarlıqla davam etdirdiyi səyləri dəstəkləyəcəyik" - deyə açıqlamada bildirilib.

***XQ***

# Qafqazda "Vaşinqton saatı" işə düşür

(əvvəli 1-ci səhifədə)

Görüşün əsas predmeti "sülh sənədinin paraflanması" kimi təqdim edilsə də, əslində bu, daha geniş bir siyasi transformasiyanın siqnalıdır. Paraflama – hüquqi baxımdan sənədin ilkin razılaşdırılması deməkdir. Amma bu paraflamanın siyasi mənası daha ağırdır. Sənəd bir dövrün bağlandığını və yeni siyasi texnologiyanın – postmünaqişə realizminin – meydana çıxdığını göstərir.

Azərbaycanın bu prosesdəki duruşu çoxdan dəyişib. Artıq Bakı özünü təkcə regiondakı hadisələrin tərəfi kimi yox, təminatçısı və memarı kimi təqdim edir. Dövlət başçısı İlham Əliyevin son illərdəki xarici siyasət strategiyası hərbi nəticələri diplomatik məna ilə birləşdirən, hüquqi statusları siyasi reallıqlarla sinxronlaşdıran bir yanaşma üzərində qurulub. Vaşinqtonda Tramp administrasiyası ilə görüş isə bu yanaşmanın beynəlxalq müstəvidə tanındığını və qiymətləndirildiyini sübut edir. Görüşün formatına baxdıqda, ABŞ-ın vasitəçiliyi ilə Prezident İlham Əliyev və Nikol Paşinyan arasında imzalanacaq sənədin qitə və dünya diplomatiyası səviyyəsində bir hadisəyə çevrilmək ehtimalı yüksəkdir.

Əgər bu sənəd imzalanarsa, Ermənistan ilk dəfə olaraq rəsmi səviyyədə Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə tanımış olacaq. Təbii ki, bu addım Qarabağla bağlı iddiaların sonu deməkdir. Siyasi və hüquqi baxımdan isə bu sənəd Ermənistanın beynəlxalq ictimaiyyət qarşısında öz mövqeyini kəskin şəkildə dəyişməsi anlamına gələcək. Yəni Ermənistan ilk dəfə olaraq keçmiş ideoloji arxa planın – "Dağlıq Qarabağ öz müqəddəratını təyin etməlidir" ritorikasının – arxivə göndərildiyini rəsmi şəkildə təsdiqləmiş olacaq. Bu isə təkcə Azərbaycan–Ermənistan münasibətləri deyil, regionun gələcək təhlükəsizlik sistemlərinin inşasında yeni mərhələnin başlanğıcıdır.

Eyni zamanda, Ermənistan daxilində formalaşmış "məğlubiyyət kompleksi" üzərində rasional bir dövlətçilik düşüncəsinin bərqərar olub-olmayacağını da göstərəcək. Ermənistan hökumətinin bu sənədi qəbul etməsi, onun daxili siyasi legitimliyini təhdid edə bilər. Lakin bu risk – əgər qəbul olunarsa – Ermənistanın tarixində ilk dəfə olaraq reallıqla barışma aktına çevriləcək. Bununla da Ermənistan artıq öz gələcəyini müharibə təbliğatının yox, iqtisadi-sosial modernizasiyanın üzərində qurmağa cəhd edə bilər.





Sənədin mahiyyətinə daxil olan digər iki məsələ isə prosesin daha geniş geosiyasi çərçivəsini ortaya qoyur: ATƏT-in Minsk qrupunun ləğvi və Senatın "Azadlığa dəstək Aktı" na 907-ci düzəlişin aradan qaldırılması. Hər iki məsələ uzun müddət ərzində regionda "status-kvonu qoruyan vasitəçilik inersiyası"nın simvollarına çevrilmişdi.

Minsk Qrupu – nə qədər formal olsa da – Qərbin və Rusiyanın Cənubi Qafqazdakı simvolik razılaşmasının təzahürü idi. Amma 2020-ci il müharibəsi həmin balansı faktiki olaraq dağıtdı. Artıq Bakı bu qrupun tarixə qovuşmasını təkidlə tələb edir. Təsadüfi deyil ki, bu tələb Vaşinqtonda irəli sürülür – Rusiya və Fransanın prosesdən tamamilə kənarlaşdırılması məqsədyönlü və strateji seçimdir. Azərbaycanın bu təşəbbüsü Cənubi Qafqazın "post-Rusiya diplomatiyası"na keçidini simvolizə edir.

Digər məsələ – 907-ci düzəlişin aradan qaldırılması – artıq ABŞ-ın daxili siyasi nizamının Azərbaycanla münasibətlərə yaratdığı süni əngəllərin ləğvi demək olacaq. 907-ci düzəlişin ləğvi Vaşinqtonun Azərbaycanı artıq etibarlı strateji tərəfdaş kimi tanıdığını rəsmi şəkildə elan etməsidir. Burada söhbət təkcə iqtisadi yardımlardan getmir. Söhbət Cənubi Qafqazın enerji, nəqliyyat və təhlükəsizlik sistemlərində Azərbaycanın aparıcı mövqeyinin ABŞ tərəfindən tanınmasından gedir.

Bütün bunlar həm də İran və Rusiyanın diqqətlə izlədiyi, narahatlıq doğuran bir dinamikanın dərinləşməsi deməkdir. İran üçün Zəngəzur dəhlizinin mümkün formalaşması, Rusiyanın isə Cənubi Qafqazda vasitəçilik institutlarından uzaqlaşdırılması strateji zərbə hesab olunur.

Məsələnin digər vacib tərəfi isə ABŞ-ın bu format vasitəsilə Cənubi Qafqazda sabitlik təşəbbüsündə liderlik göstərmək cəhdidir. Xüsusilə, Tramp Administrasiyası bu məsələni yüksək siyasi məsuliyyət və strateji baxışla gündəmə gətirərək, təkcə bir münaqişənin nizamlanmasına deyil, regionda yeni geosiyasi sabitlik modelinin formalaşmasına töhfə verməyə çalışır. Təşəbbüs Azərbaycanın siyasi dairələrində də olduqca müsbət qarşılanır və ABŞ-ın regionda konstruktiv rol oynamaq niyyətinin ciddi göstəricisi kimi dəyərləndirilir.

ABŞ Prezidenti Donald Trampın bu prosesə şəxsən liderlik təşəbbüsü onun tərəflərə real nəticəyə yönəlmiş vasitəçilik modeli təqdim etmək niyyətindən xəbər verir. Məlumdur ki, Tramp Administrasiyası daha əvvəl də Yaxın Şərqdə və Koreya yarımadasında nəticəyə hesablanmış diplomatik təşəbbüslərlə çıxış etmişdi. İndi isə Vaşinqton formatı vasitəsilə Tramp Cənubi Qafqazda da tarixi bir diplomatik mərhələyə imza atmaq imkanına sahibdir.

Əgər bu görüş nəticəsində sülh sənədinin paraflanması baş tutarsa, bu, Donald Tramp üçün beynəlxalq münasibətlər tarixində onun adı ilə bağlanacaq yeni bir presedent olacaq. Mövcud yanaşma, həmçinin ABŞ-ın gələcəkdə regionla əməkdaşlığını daha dərin və institusional əsasda inkişaf etdirməsi üçün önəmli zəmin yaradır. Donald Trampın Cənubi Qafqazda sülh təşəbbüsünü şəxsi siyasi gündəmindən kənar, qlobal liderlik və normativ güc göstərisi kimi ortaya qoyması, onun bu prosesdəki rolunu daha əhəmiyyətli edir. Vaşinqtonun Azərbaycanla strateji dialoq qurmaq istəyi və bu istiqamətdə atdığı konkret addımlar Bakı tərəfindən real tərəfdaşlıq niyyəti kimi qiymətləndirilir.

Prezident İlham Əliyev də bu formatda həm diplomatik üstünlük qazanan, həm də prosesin gündəm qurucusu və reallıq yönləndiricisi kimi çıxış edir. Onun son illərdə formalaşdırdığı "praqmatik suverenlik" modeli – yəni prinsipial mövqeyi taktiki çevikliklə birləşdirən yanaşma – artıq region daxilində normativ xarakter almaqdadır. Bu model nə Rusiyanın orbitinə sığınan, nə də Qərbin diqtəsinə tabe olan klassik periferik dövlət davranışıdır. Azərbaycan öz diplomatik trayektoriyasını müstəqil və çevik geosiyasi məntiq əsasında qurur.

Gələcək perspektivdə isə prosesin davamı daha vacib olacaq. Paraflanacaq sənəd – əgər baş tutarsa – yekun sülh sazişinə qədər olan mərhələdə hüquqi və siyasi presedent rolu oynayacaq. Sənədin ruhu gələcək razılaşmanın şərtlərini müəyyən edəcək. Belə olan halda, Ermənistanın bu sənədi qəbul etməsi onun sonrakı mövqelərinin manevr imkanlarını da məhdudlaşdıracaq. Azərbaycan isə həmin sənədin hüquqi əsaslarını gələcək regional platformaların qurulmasında referens nöqtəsi kimi istifadə edəcək. Zəngəzur dəhlizi, sərhədlərin delimitasiyası, nəqliyyat xətləri – bütün bunlar artıq həmin sənədin içində konkret şəkildə əks olunmasa belə, onun hüquqi-fəlsəfi əsasına söykənəcək.

Digər vacib perspektiv isə, bu prosesin regional təhlükəsizlik arxitekturasının transformasiyasına təsiridir. Əgər paraflanma mərhələsi uğurla keçilərsə və sülh sazişi mərhələsinə yol açılarsa, bu zaman Cənubi Qafqaz regionunda ilk dəfə olaraq lokal münaqişələrdən kənar, dövlətlərarası hüquqi konsensuslara əsaslanan yeni təhlükəsizlik formatı yarana bilər. Məhz bu baxımdan, Azərbaycan–Ermənistan sülhü yalnız Cənubi Qafqazın bütövlükdə gələcəyini müəyyən edən platformadır.

Son olaraq qeyd edilməlidir ki, Qafqazda "Vaşinqton saatı" artıq işə düşüb. Masadakı sənədlərdən çox, səhnəarxası strateji iradə bu prosesə yeni zaman anlayışı gətirir. Regionda mövcud olan siyasi boşluqların real təşəbbüslərlə doldurulduğu mərhələyə çatmışıq. Azərbaycan isə bu saatın mexanizmini quran əsas aktora çevrilib. O, artıq hadisələrin tərkib hissəsi deyil – hadisələrin vaxtını, ritmini və istiqamətini müəyyən edən gücdür.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

---

# ANCA yenə öz ampluasındadır

**Amerika Erməni Milli Komitəsi (ANCA) növbəti dəfə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına qarşı çıxış edib. Vaşinqtonda imzalanan sənədlərin bölgədə sülh və əməkdaşlıq üçün möhkəm zəmin yaratdığı bir vaxtda təşkilat bu təşəbbüsləri hədəfə alıb. Qurumun bəyanatında reallıqlara zidd yanaşmalar açıq şəkildə sezilir.**

Təşkilat konstruktiv mövqedən çıxış etməkdənsə, köhnə yanaşmalarını davam etdirir. Halbuki, hazırkı proseslər region xalqlarının maraqlarına uyğun qarşılıqlı anlaşmaya və dialoqa əsaslanır. ANCA-nın tutduğu bu mövqe, əslində, regionda sülhün əldə olunmasını deyil, qarşıdurmanın davam etməsini istəyən dairələrin marağını əks etdirir.

ANCA həyasızcasına iddia edib ki, İrəvan və Bakının imzaladıqları və Vaşinqtonun dəstəklədiyi sənədlər Azərbaycanın "Artsaxdakı soyqırımı hərəkətlərini" legitimləşdirir. Təşkilat iddia edib ki, imzalanmış sənəd erməni xalqının əsas prioritetlərini əhatə etməyəcək: "Əsas prioritetlər "Artsax" ermənilərinin öz evlərinə qayıtmaq hüququ, "əsir və girovlar"ın azad edilməsi, xristian müqəddəs yerlərinin beynəlxalq mühafizəsi, habelə Azərbaycan qoşunlarının Ermənistanın suveren ərazisindən (?) çıxarılmasıdır".

ANCA-nın icraçı direktoru Aram Hambaryan deyib ki, 100 mindən çox "Artsax" ermənisinin zorla qovulmasını (?) tanıyan və qanuniləşdirən istənilən razılaşma İrəvanı sülhdən uzaqlaşdırır və "Azərbaycanın yeni təcavüzünü" (?) yaxınlaşdırır. İddia edib ki, əgər Vaşinqton Cənubi Qafqazda sülhə vasitəçilik etmək istəyirsə, o, sülh prosesinin Ermənistana yönələn təhdidlərə deyil, məsuliyyətə əsaslanaraq həqiqi olmasını təmin etməlidir. "Amerika erməniləri ədalətli güzəştləri əvəz edən və ermənilərin həyatını riskə atan istənilən razılaşmaya qəti şəkildə qarşı çıxırlar", – deyə Hambaryan bildirib.

Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun"un "Hay Data" mərkəzi ofisi də oxşar bəyanatla çıxış edib. Bəyanatda Azərbaycan, Ermənistan və ABŞ ədalətə, hesabatlılığa, "məcburi köçkün erməni əhalisinin" geri qaytarılmasına, Ermənistanın təhlükəsizliyinin və suverenliyinin qorunub saxlanmasına əsaslanan prinsipial və dayanıqlı sülh axtarmağa çağırılıb.

***

Bəli, ANCA yenə iç üzünü nümayiş etdirdi. Halbuki, Vaşinqtonda Ermənistan və Azərbaycan arasında imzalanmış sənədlər Cənubi Qafqazda davamlı sülh və əməkdaşlıq üçün mühüm siyasi iradənin göstəricisi kimi qiymətləndirilməlidir. Bu sənədin əsas qayəsi onilliklər boyu davam edən silahlı münaqişənin aradan qaldırılması və regionda təhlükəsizlik arxitekturasının qurulmasıdır. Lakin işi-gücü təxribat törətmək olan ANCA təşkilatı bir daha öz mövcudluğunu məhz bu cür təşəbbüslərə qarşı çıxmaqla əsaslandırmağa çalışır. Təşkilatın yaydığı bəyanatda imzalanmış sənədin Azərbaycanı, guya, keçmişdə törətdiyi "soyqırımı"na görə haqlı çıxardığı, onların öz sözləri ilə desək, legitimləşdirdiyi iddia edilir. Bu yanaşma, nəinki beynəlxalq hüquqa, həm də real siyasi vəziyyətə ziddir. Çünki tərəflərin öz aralarında razılaşması və bu razılaşmanın beynəlxalq aləm tərəfindən müsbət qarşılanması hansısa "cinayətin ört-basdır edilməsi" yox, sülh naminə atılan addımların dəstəklənməsidir.




ANCA-nın diqqətə çatdırdığı "əsas prioritetlər" isə uzun illər regionda sülhü mümkünsüz edən köhnə yanaşmanın təkrarıdır. Təşkilat Qarabağ ermənilərinin qayıdışı, xristian abidələrinin müdafiəsi və "erməni əsirlər"in azad edilməsi kimi məsələləri qabartmaqla bir tərəfdən hisslərlə oynayır, digər tərəfdən isə bu məsələləri yeni reallıqlarla uzlaşdırmaqdan imtina edir. Reallıq isə bundan ibarətdir ki, Azərbaycanın ayrılmaz parçası olan Qarabağ bölgəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub, ölkəmizin müxtəlif yerlərinə səpələnmiş keçmiş məcburi köçkünlərin qayıdış prosesi uğurla reallaşdırılır və sülh sazişinin imzalanması istiqamətində işlər yekun mərhələyə qədəm qoyub. Bu mərhələdə həllini gözləyən məsələlərdən biri də indiyədək şərti xarakter daşıyan dövlət sərhədlərinin müəyyənləşdirilməsidir. Bütün bu məsələlər yalnız qarşılıqlı etimada əsaslanan diplomatik dialoq vasitəsilə həll oluna bilər.

Bəyanatda yer alan digər bir yanlış iddia isə Azərbaycan ordusunun, guya, Ermənistanın "suveren ərazisində" mövcudluğudur. Yeri gəlmişkən, qeyd edək ki, bu məsələ Ermənistandakı radikal revanşist kəsim tərəfindən də tez-tez qaldırılır. Onlar iddia edirlər ki, Azərbaycan Ermənistanın 1 faiz ərazisini zəbt edib. Halbuki, radikalların və onlara züy tutanların Azərbaycanı işğalda ittiham etmələri heç bir əndazəyə sığmır və prosesləri tormozlamağa xidmət edir. Prezident İlham Əliyev hələ 2021-ci il iyulun 22-də AzTv-yə müsahibəsində bu məsələyə münasibət bildirərək deyib: "Təbii ki, bu məsələ səfər zamanı Şarl Mişellə (Avropa İttifaqı Şurasının sabiq prezidentinin 2021-ci il iyulun 18-də Bakıya etdiyi səfər nəzərdə tutulur–S.H.) müzakirə olundu və mən izah etməyə çalışdım ki, biz öz sərhədimizə çıxmışıq. Nə üçün may ayında çıxmışıq? Çünki qar əridi. Qar idi, iki-üç metrlik qar idi. Ora çıxmaq mümkün deyildi. Qar əriyəndən sonra biz çıxdıq, lazım bildiyimiz nöqtələri götürdük və orada yerləşdik, orada möhkəmlənirik və möhkəmlənəcəyik. Ona görə Ermənistanın, əlbəttə, məyus olması ondan irəli gəlir ki, onlar yenə də xülyalarla yaşayırlar. Onlar postmüharibə reallıqları ilə barışa bilmirlər. Hesab edirəm ki, burada psixoloji amil də öz rolunu oynayır. Yəqin onlara vaxt lazımdır ki, psixoloji nöqteyi-nəzərdən yeni reallığa öyrəşsinlər. Çünki bizim Zəfərimiz onların bütün ideoloji sütunlarını darmadağın edib..."

Zənnimizcə, Prezident İlham Əliyevin bəyan etdiyi bu fikirlər qarşı tərəfdəki radikallara, yəni, Azərbaycanı hansısa torpaqları tutmaqda ittiham edənlərə aydın mesaj olmalıdır. Onlar birdəfəlik anlamalıdırlar ki, Azərbaycan Ordusunun hazırda dayandığı ərazidən çıxarılması heç bir şəkildə müzakirə predmeti ola bilməz.

Digər tərəfdən, bu tezisin özü belə danışıqlara kölgə salmaq və regionda gərginliyi yenidən qızışdırmaq məqsədi güdür. Halbuki, son razılaşmalar bir daha göstərir ki, sərhədlərin müəyyənləşdirilməsi məsələsi tərəflər arasında razılıq əsasında, mərhələli və sülh yolu ilə həll olunur. Məhz bu səbəbdəndir ki, beynəlxalq birlik Vaşinqton sənədinə müsbət yanaşır və onu regionda sabitliyin əsası hesab edir. ANCA-nın bu prosesə qarşı çıxması isə yalnız destruktiv dairələrin və ekstremist qrupların mövqeyini əks etdirir. Belə bəyanatlar nə Ermənistanın inkişafına, nə də region xalqlarının təhlükəsizliyinə xidmət edir. Əksinə, bu cür yanaşmalar real və məsuliyyətli siyasətin qarşısını almağa yönəlmiş addımlardır.

ANCA icraçı direktorunun son açıqlaması təşkilatın Azərbaycan–Ermənistan sülh prosesinə münasibətindəki ənənəvi mövqeyin davamı kimi dəyərləndirilə bilər. Hambaryan razılaşmanı "zorla qovulma"nın tanınması və Azərbaycanın hansısa mücərrəd "yeni təcavüz"ünə zəmin kimi təqdim etməyə çalışır. Halbuki bu məsələdə də reallıq tam fərqlidir. 2023-cü ilin sentyabrında Azərbaycanın Qarabağ bölgəsində suverenliyini bərpa etməsindən sonra bölgədə hərbi toqquşmalara son qoyulub və sabitlik yaranıb. Ermənistan və Azərbaycan arasında imzalanmış sənəd bu sabitliyi hüquqi çərçivəyə salmaq məqsədi daşıyır və qeyd etdiyimiz kimi, beynəlxalq aləmdə də müsbət qarşılanır.

Amerikada şad-xürrəm, qayğısız ömür sürən, necə deyərlər, yağ-bal içində yaşayan bu zatın fikirləri isə Ermənistanı sülhdən çəkindirməyə, onu davamlı təhlükə içində göstərməyə, keçmişə qaytarmağa, əhalisini isə yoxsul, miskin yaşamağa çağırışdır. Bu cür mövqelər təkcə Cənubi Qafqazda normallaşma prosesini əngəlləmir, həm də Ermənistanın inkişafını ləngidir. "Amerika erməniləri ədalət tələb edir" iddiası isə bütün diasporu eyni düşüncədə göstərmək cəhdidir ki, bu da reallığa uyğun deyil. Çünki ABŞ-da yaşayan bir çox erməni də artıq münaqişənin bitməsinin və regionda əməkdaşlıq mühitinin yaranmasının vacibliyini anlayır. Hambaryan kimi şəxslər isə bu dəyişiklikləri qəbul etməyə hazır deyillər. Onlar üçün sülh deyil, qarşıdurmanın davamı vacibdir. Bu baxımdan onun bəyanatı siyasi zəmindən çox, emosional çağırışlar toplusudur və real diplomatik proseslərə uyğun gəlmir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

Aram Hambaryanın son açıqlaması ANCA-nın uzun illərdir yürütdüyü siyasətin məntiqi davamıdır. Onun Ermənistan və Azərbaycan arasında əldə olunan razılaşmanı özünəməxsus şəkildə təqdim etməsi hadisələrə birtərəfli və qərəzli yanaşmanın göstəricisidir. Halbuki bu sənəd bölgədə sülh və təhlükəsizlik üçün yeni imkanlar açır, silahlı qarşıdurmaların təkrarlanmasının qarşısını almağa xidmət edir. Hambaryan hansısa yeni "təcavüz" riskindən danışsa da, əslində, son razılaşmalar iki dövlət arasında sülhün və qarşılıqlı etimadın bərpası məqsədi daşıyır.

Təəssüf ki, ANCA rəhbərliyi sülh prosesinin mahiyyətinə deyil, onun doğura biləcəyi daxili siyasi nəticələrə fokuslanır. Hambaryanın fikirləri diasporu təmsil edən müxtəlif mövqeləri nəzərə almayan, yeknəsəq və qütbləşdirici yanaşmadır. ABŞ-da yaşayan bütün ermənilərin sülhə qarşı olduğu iddiası da reallığı əks etdirmir. Əksinə, getdikcə daha çox diaspor nümayəndəsi anlayır ki, bölgədə sabitliyin yaranması Ermənistanın inkişafı və təhlükəsizliyi üçün yeganə yoldur.

# Hikmət Hacıyevin paylaşımı




**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Vaşinqtonda ABŞ, Azərbaycan, Ermənistan liderlərinin gözlənilən görüşü ilə bağlı "X" hesabında paylaşım edib.**

**Paylaşımda deyilir:**

**"Prezident İlham Əliyev müharibədə qalib gəldi – indi o sülhü qazanır!!!"**

# Ədliyyə naziri Ağsuda vətəndaşların müraciətlərini dinləyib



**Ədliyyə naziri Fərid Əhmədov avqustun 8-də Ağsuda vətəndaşların müraciətlərini dinləyib.**

Qəbulda Ağsu, İsmayıllı, Şamaxı, Qobustan, Göyçay və Kürdəmir rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

# Samir Şərifov qırğızıstanlı həmkarı ilə görüşüb

**Baş nazirin müavini Samir Şərifov avqustun 8-də Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Edil Baysalov ilə görüşüb.**



Görüşdə Azərbaycan və Qırğızıstan prezidentlərinin qarşılıqlı etimada əsaslanan münasibətlərinin və sıx təmaslarının dövlətlərarası əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında və ardıcıl şəkildə inkişaf etməsində ən mühüm amil olduğu vurğulanıb.

İki ölkə arasında ticarət-iqtisadi, investisiya, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Görüş zamanı, həmçinin Baş nazirin müavini S.Şərifovun həmsədri olduğu Azərbaycan-Qırğızıstan iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyasının növbəti iclasının cari ilin sonlarında Bakı şəhərində keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Baş prokuror Qəbələdə qəbul keçirib



**Avqustun 8-də Baş prokuror Kamran Əliyev Qəbələ Rayon Prokurorluğunun inzibati binasında Qəbələ, Oğuz, İsmayıllı, Göyçay rayonlarından və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 46 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib.

***XQ***

# Azərbaycan XİN-in Gürcüstanla bağlı paylaşımı

**"Biz Gürcüstanda münaqişənin suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında, beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində sülh yolu ilə həllini tam dəstəkləyirik".**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin "X" hesabında bildirilib.

"Azərbaycan Gürcüstanla sıx tərəfdaşlıq və qonşuluq münasibətlərinə böyük əhəmiyyət verir", - açıqlamada vurğulanıb.

Xatırladaq ki, dünən Rusiya və Gürcüstan arasında 2008-ci ildə baş vermiş müharibədən 17 il ötüb.

**Xuntaçıların məhkəməsi**

# Doğmaları itkin düşmüş, yaralanmış, işgəncələrə məruz qalmış şəxslər səbəbkarları ittiham edirlər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 8-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Lənkəran Cəfərli 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ağdam rayonunun Çəmənli kəndində mülki əhalinin təxliyəsi ilə məşğul olarkən Ermənistan silahlı qüvvələrinin atdığı mərminin partlaması nəticəsində xəsarət aldığını bildirib.

Şəmsi Kazımlı ifadəsində Vətən müharibəsi zamanı oktyabrın 19-da Hadrutda iki güllə yarası aldığını bildirib. Zərərçəkmiş şəxs 2021-ci ilin mayın 12-də Azərbaycan-Ermənistan şərti sərhədində, Laçın rayonunda, Gorus-Sisyan istiqamətində ona küt alətlə xəsarət yetirildiyini deyib.

Azad Axundov da özündən əvvəl ifadə vermiş Ş.Kazımlının dediklərinə oxşar ifadə verib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs 2021-ci il mayın 12-də Azərbaycan-Ermənistan şərti sərhədində silahın qundağı ilə vurulması nəticəsində xəsarət aldığını söyləyib.





Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran Ranil Abdullayev ifadəsində Vətən müharibəsi zamanı, oktyabrın 21-də Suqovuşanda minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs Elvin Kərimovun hüquqi varisi - Niyaz Kərimov ifadəsində qardaşının Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində şəhid olduğunu deyib.

Zərərçəkmiş şəxs İdris Mirzəyev 1994-cü ilin aprel ayında Tərtər rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Əsirlik zamanı döyülüb, işgəncələrə məruz qalıb, o cümlədən başında butulka sındırılıb. Aldığı xəsarətlər nəticəsində onurğa sütunu zədələnib, bu səbəbdən axsayır.

Həbib Əliyev 1992-ci ildə Laçında həqiqi hərbi xidmətdə olarkən, döyüşlər zamanı yaralanması nəticəsində əsir götürüldüyünü söyləyib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş şəxs bildirib ki, yaralı vəziyyətdə döyülüb, işgəncələrə məruz qalıb. Əsir əsgər yoldaşı gözləri qarşısında yandırılıb. Həbib Əliyev əsirliyinin 1 il 8 ayını zirzəmidə saxlanılıb. 1995-ci il mayın 8-də əsirlikdən azad olunub.

Mahir Əbilov 2021-ci ilin noyabr ayında Laçın rayonunun Güləbird kəndində "Azərişıq" ASC-nin əməkdaşı qismində çalışarkən mina partlayışı nəticəsində xəsarət aldığını bildirib.

Diləfruz Ələkbərova ifadəsində 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunun İsmayılbəyli kəndini işğal etməsi nəticəsində ailə üzvləri ilə birlikdə məcburi köçkün düşdüyünü bildirib. Onların bütün mülkləri həmin vaxt işğal edilmiş ərazilərdə qalıb.

Tovuz Cəlilova ifadəsində həyat yoldaşı Bədirxan Cəlilovun 1994-cü il aprelin 17-də Ağdam rayonunun Güllücə kəndində döyüşlər zamanı itkin düşdüyünü bildirib.

Gülizar Salahova ifadəsində övladı Salahov Valeh Vaqif oğlunun 1994-cü il yanvarın 10-da Füzuli rayonunun Əbdürrəhmanlı kəndində döyüşlər zamanı itkin düşdüyünü söyləyib.

Rasim Bağırov ailə üzvləri ilə birlikdə Xankəndidən məcburi köçkün düşdüyünü deyib.

Ofeliya Almuradova ifadəsində Ermənistan silahlı qüvvələrinin Zəngilan rayonunu işğal etməsi nəticəsində 6 nəfərdən ibarət ailə üzvləri ilə birlikdə məcburi köçkün düşdüyünü bildirib. Qardaşı yaralanıb, əmisi oğlu itkin düşüb.

Zərərçəkmiş şəxs Cəfərov Emin Xeyrulla oğlunun hüquqi varisi Zümrüd Əbdülrəhimova ifadəsində qardaşının 1993-cü il dekabrın 26-da Füzuli rayonunda gedən döyüşlərdə şəhid olduğunu söyləyib.

Mahir Ağayev ifadəsində 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin açdığı artilleriya atəşi nəticəsində Füzuli rayonunda yaşadığı ikimərtəbəli evin dağıldığını, bir müddət sonra isə işğal səbəbindən məcburi köçkün düşdüyünü bildirib.

Gəncəli Kərimov 1992-ci ilin may ayında Laçın rayonunun Xanalılar kəndindən məcburi köçkün düşdüyünü bildirib. O deyib ki, Ermənistan silahlı qüvvələrinin hərbçiləri kənddə evləri talan edərək yandırıblar.

Sevinc Əsgərova 1993-cü ildə Zəngilan rayonunun Mincivan kəndindən məcburi köçkün düşdüklərini bildirib. O deyib ki, həmin vaxt Araz çayı vasitəsilə İrana keçiblər.

Həbib İmanlı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə, Xocalı soyqırımı zamanı atasının və babasının həlak olduğunu bildirib.

Sevindik Əliyev ifadəsində deyib ki, yaşadığı Füzuli rayonunun Aybasanlı kəndinin 1993-cü il mayın 29-da Ermənistan silahlı qüvvələri tərəfindən top atəşinə tutulması nəticəsində anası Sitarə Əliyeva həlak olub. Bir müddət sonra isə məcburi köçkün düşüb.

Zərərçəkmiş şəxslər - Tahir Nəcməddinov, Firudin Yaqubov, Rasim Şükürov. Mübariz Zülfüqarov. Eldar Əsgərov, Azər Sadıqov, Əhməd Əhmədov, İradə Məmmədova, Rövşən Niftalızadə, Qəzənfər Abbaszadə və Şahsuvar Abbasov ifadələrində Ermənistan silahlı qüvvələrinin müxtəlif tarixlərdə təxribatları, hücumları nəticəsində zərər çəkdiklərini bildiriblər.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, o cümlədən Levon Mnatsakanyanın, David Manukyanın, David Babayanın, Davit İşxanyanın, təqsirləndirilənlərin müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 11-də davam etdiriləcək.

***XQ***

# Dünyanın "Sülh günəşi"nə ehtiyacı var

## *Vaşinqton görüşünün razılaşdırılmış gündəliyi və Ağ evin siyasi qətiyyəti okeanın o tayında gerçəkləşən xoş məramı ifadə edir*

**"Mən Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistanın baş naziri Nikol Paşinyanı Ağ evdə tarixi sülh sammiti üçün qəbul etməyi səbirsizliklə gözləyirəm". Bu barədə ABŞ Prezidenti Donald Tramp dünən "Truth" sosial şəbəkəsindəki səhifəsində yazıb.**



Ardınca iki xalqın uzun uzun illər müharibə apardığını və minlərlə insanın öldüyünü diqqətə çatdıran ABŞ lideri üçtərəfli görüşün nəticələri ilə bağlı pozitiv fikirlərini dilə gətirib: "Bir çox liderlər indiyədək müharibəni bitirməyə çalışdılar, lakin uğur əldə edə bilmədilər. Mənim administrasiyam uzun müddətdir ki, hər iki tərəflə işləyir".

Həqiqətən də ən yüksək səviyyədə təşkil edilmiş bu təmaslar Ermənistan–Azərbaycan münasibətlərinin bütün müstəvilərdə normallaşması üçün rəsmi Vaşinqtonun göstərdiyi səylərin, atdığı konkret və kəsərli addımların nəticəsində mümkünə çevrildi. Məhz bu prizmadan yanaşanda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri yalnız Azərbaycan–ABŞ ikitərəfli münasibətlərin inkişafı baxımından deyil, eyni zamanda, regional sabitlik və qlobal təhlükəsizlik kontekstində xüsusi əhəmiyyət kəsb edir.

Birləşmiş Ştatların Prezidenti Donald Trampın rəsmi dəvəti ilə gerçəkləşən bu səfər həqiqətən də tarixi xarakter daşıyır. Bu görüş 2020-ci ildən sonra bölgədə yaranmış yeni reallığa adekvat olmaqla yanaşı, danışıqlar prosesində Azərbaycanın üstün tərəf olduğuna dəlalət edir. Rəsmi Vaşinqton bu prosesdə uzun müddət vasitəçi qismində iştirak etsə də, bu dəfə danışıqlar masasında ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş güclü Azərbaycan oturur. Digər tərəfdən, Vaşinqton–Bakı münasibətləri kontekstində sülh təşəbbüslərinə verilən siyasi dəstək həm də Ermənistan daxilindəki revanşist qüvvələrə ciddi xəbərdarlıq sayıla bilər. Bu səfərin, həmçinin ölkəmizin beynəlxalq nüfuzunun daha da artması, regionda balanslı, praqmatik xarici siyasət kursunun davam etdirilməsi baxımından mühüm mərhələ kimi qiymətləndirilməlidir. İrəvan və Bakı arasında konkret razılaşmaların əldə ediləcəyinin gözlənildiyi Vaşinqton sammiti həm regional sabitlik və dayanıqlı əməkdaşlıq üçün yeni imkanların yaranmasına, həm də ABŞ–Azərbaycan münasibətlərinin keyfiyyətcə yeni fazaya keçməsinə səbəb olacaq.

Ağ evin yeni sahibinin İsraillə İran, Kamboca ilə Tailand, Hindistan və Pakistan arasındakı hərbi qarşıdurmalara son qoyulması ilə bağlı tərəfsiz və məqsədyönlü fəaliyyəti, bu coğrafiyalarda əldə olunan müsbət nəticələr yaşı 40-a çatmış Ermənistan–Azərbaycan münaqişəsinin də sülhə qovuşacağına ümidləri xeyli artırıb. Hamı Vaşinqton görüşünün tərəflərin sülhə gələrək əlsıxma səhnəsi ilə yekunlaşacağını gözləyir. Bəli, bu dəfə Cənubi Qafqazda sülhün bərqərar olacağına ümidlər həmişəkindən daha böyükdür. Nə gizlədək, ABŞ Prezidenti Donald Trampın ikinci prezidentliyi dövründə intensivləşən Qafqaz təşəbbüsləri bu ümidlərin gerçəkləşəcəyinə şübhə yeri qoymur.

*

Azərbaycan lideri İlham Əliyevin Vaşinqtona işgüzar səfəri təkcə ikitərəfli münasibətlərinin qeyd etdiyimiz yeni fazaya keçməsi baxımından deyil, həm də regional sabitlik və qlobal təhlükəsizlik müstəvisində böyük strateji əhəmiyyətə malikdir. Artıq heç kəsə sirr deyil ki, D.Tramp prezident seçiləndən sonra Bakı–Vaşinqton münasibətlərində yeni dinamika formalaşmağa başladı. Co Bayden administrasiyası dövründəki ikili yanaşma səbəbindən yaranmış yersiz gərginlikdən fərqli olaraq, hazırda iki ölkə arasında qarşılıqlı etimad və siyasi dialoq mühiti hökm sürür. Prezident İlham Əliyevin səfəri bu münasibətlərin yenidən dirçəlməsinə və tərəflər arasında strateji əməkdaşlığın genişlənəcəyinə səbəb olacaq.

Yeri gəlmişkən, Trampın yenidən prezident seçilməsindən sonra iki ölkənin liderləri arasında baş tutan telefon danışıqları, məktub mübadilələri, məmnunluq ifadə edən qarşılıqlı onlayn paylaşımlar münasibətlərin həm də şəxsi etimada əsaslandığını göstərir. İlham Əliyevin ABŞ-a bu səfəri ikitərəfli dialoqun diplomatik müstəviyə keçərək konkret nəticələr doğura biləcək əməkdaşlıq mərhələsinə daxil olduğunu müjdələyir. Deməli, bu, Vaşinqton–Bakı diplomatik trekində siyasi təmasların dərinləşməsinin, qarşılıqlı hörmətə söykənən strateji münasibətlərin institusional xarakter almasının əyani göstəricisidir.

*

Oxuculara xatırladaq ki, Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin əvvəlcə ikitərəfli təmaslarından (Bakı vaxtı ilə 8 avqustda–red.) sonra təşkil olunan üçtərəfli görüş (Bakı vaxtı ilə 9 avqustda – red.) çərçivəsində sülh sazişi mətninin paraflanması, ATƏT Baş katibinə Minsk qurupundan çıxmaqla bağlı Azərbaycan və Ermənistan rəhbərlərinin birgə müraciətinin təsdiqlənməsi və "Azadlığa dəstək Aktı"na 907-ci əlavənin aradan qaldırılması gözlənilirdi. Bundan başqa, üçtərəfli görüşdə Zəngəzur dəhlizi də müzakirə mövzusu idi. Son məsələ iyulun əvvəlində Əbu-Dabidə baş tutan ikitərəfli görüşdə də müzakirəyə çıxarılmışdı. Həmin görüşdən sonra tərəflər rəsmi şəkildə danışıqların konstruktiv keçdiyini və bundan sonra təmasları davam etdirməyə hazır olduqlarını bəyan etmişdilər. Bu kimi dialoq-görüşlərin baş tutması o deməkdir ki, sülh prosesində irəliləyiş əldə olunub. Ona görə də hazırda Vaşinqton görüşündən təkcə İrəvan və Bakının deyil, bütün dünyanın müsbət gözləntiləri var.

*

Bir faktı da qeyd etməyimiz və unudanlara xatırlatmağımız çox vacibdir: Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbə ilə Cənubi Qafqazda yeni geosiyasi reallıq formalaşdırdı. Prezident İlham Əliyev məhz bu yeni reallıqlara əsaslanaraq, regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması üçün ədalət və beynəlxalq hüquq zəminində yeni prinsiplər təklif etdi. İndi Azərbaycan bu gündəliyi uğurla sona çatdırmağa yaxındır.

ABŞ lideri Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanla birlikdə Ağ evdə sülhə dair sənədin imzalanma mərasimi olacağını vurğulayıb. D.Tramp bildirib ki, Birləşmiş Ştatlar, həmçinin Cənubi Qafqaz regionunun potensialını tam şəkildə açmaq və iqtisadi imkanları birlikdə həyata keçirmək üçün hər iki ölkə ilə ikitərəfli sazişlər imzalayacaq. "Mən böyük Azərbaycan və Ermənistan xalqları üçün düzgün iş gördüklərinə görə bu cəsarətli liderlərlə çox fəxr edirəm. Bu, Azərbaycan, Ermənistan, ABŞ və dünya üçün tarixi gün olacaq", – deyə o vurğulayıb.

Etiraf edək ki, bugünədək tərəflər sülhə bu qədər yaxınlaşmamışdılar. Vaşinqtonda Bakı vaxtı ilə saat saat 00.15-də üçtərəfli görüşün yekununda imzalanacaq sənədlər yeni günün başlandığını müjdələyəcək. Eləcə də ümidlərlə dolu günün və gecənin ardından səhər obaşdan Xəzərlə yanaşı, Atlantik okeanın üzərində də sülh Günəşinin doğacağına əmin olmaq istərdik. İndi sülh rəmzinə çevriləcək yeni, ağ rəngli Günəşə Azərbaycan və Ermənistandan savayı, Cənubi Qafqazın, Şərqin və bütün dünyanın ehtiyacı var.

***İmran BƏDİRXANLI***
***XQ***

# BTQ və Zəngəzur dəhlizi bir-birini tamamlayacaq

## *Hər iki marşrut Azərbaycanın regional rolunu gücləndirəcək*

**Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti Cənubi Qafqazın və Xəzər regionunun nəqliyyat və ticarət imkanlarını genişləndirən əhəmiyyətli bir layihə olaraq, Avropa ilə Asiya arasında daha sürətli və səmərəli ticarət əlaqələrinin yaradılması üçün mühüm bir infrastrukturdur. BTQ-nin əsas məqsədi, Şərq ilə Qərb arasında fasiləsiz və sürətli nəqliyyat əlaqələri yaratmaqdır. Bu marşrut Çin və Avropa arasında tranzit yük daşımalarını asanlaşdırmaq üçün çox əhəmiyyətlidir. "Yeni İpək yolu"nun bir hissəsi olan dəmir yolu həm Asiya, həm də Avropa bazarlarına birbaşa çıxış təmin edərək ticarət həcmini artırmağa yönəlib. Onun fəaliyyəti yalnız Azərbaycan, Gürcüstan və Türkiyə arasında deyil, bütövlükdə Avrasiyada ticarət və iqtisadi əlaqələrin möhkəmlənməsinə xidmət edir.**



Bütün bu üstünlüklərə baxmayaraq, Bakı–Tbilisi–Qars dəmir yolunu gözdən salmağa çalışan qüvvələr var. Bu qüvvələr Zəngəzur dəhlizini önə çıxarmaqla BTQ-nin isə onunla rəqabətdə perspektivinin olmadığını bildirirlər. Hay-küy salanlar arasında Gürcüstanın qərbyönlü müxalifəti xüsusilə seçilir. Maraqlıdır ki, marşrut üzərindən tranzit yüklərinin artım perspektivləri yarandığı bir zamanda müxalifətindən olan "ekspertlər" bu dəmir yolunu "dəfn etməyə" başlayıblar. Onların əsas tezisi budur ki, Zəngəzur dəhlizi Qərbin xeyir-duası ilə açılacaq və ABŞ bu dəhlizə daxil olacaq. Doğrudur, ABŞ Zəngəzur dəhlizinin idarə etməyə hazır olduğunu bildirib. Bu barədə ABŞ-ın Türkiyədəki səfiri Tom Barrak Nyu-Yorkda jurnalistlərə açıqlama verib. Onun sözlərinə görə, ABŞ 100 il müddətinə 32 kilometrlik Zəngəzur dəhlizinin idarəçiliyini öz üzərinə götürməyi təklif edib. Səfir vurğulayıb ki, bu yolla hər iki tərəf – həm Azərbaycan, həm də Ermənistan – dəhlizdən istifadə edə biləcək. Tom Barrak əlavə edib ki, təklifin əsas məqsədi Azərbaycan və Ermənistan arasında diplomatik danışıqların irəliləməsinə töhfə verməkdir.

Gürcü müxalifətinə görə, dəhlizin ABŞ tərəfindən icarəyə götürülməsi tranzit yüklərin artıq Gürcüstandan deyil, Ermənistandan keçməsinə səbəb olacaq. Onların fikrincə, bu dəyişiklik Tbilisini Orta Dəhlizdəki əsas mövqeyindən məhrum edəcək. BTQ-yə qarşı belə təbliğat təsislərin Brüsseldən yönləndirildiyi hiss olunur. Çünki Gürcüstan müxalifəti xarici havadarlarının göstərişi ilə hərəkət edir.

Yada salaq ki, bu, BTQ-yə qarşı ilk kampaniya deyil. Əvvəllər də bu cür təşəbbüslər olub. Dəmir yolunun tikintisinə mane olmağa çalışan əsas qüvvə ilk gündən İrəvan idi. Rəsmi İrəvan və xüsusilə də xaricdəki hay diasporu Ermənistandan yan keçəcək dəmiryol layihəsinə qeyri-ciddi yanaşıb və onu əhəmiyyətsiz layihə kimi qiymətləndirib. 2004-cü ildə Ermənistanın o dövrdəki prezidenti Robert Köçəryan İrəvanda tələbələrlə görüşdə "Əminəm ki,



bu dəmiryol xətti tikilməyəcək. Çünki iqtisadi baxımdan sərfəli deyil", – deyə bildirmişdi.

2007-ci ilin yanvarında layihənin artıq reallaşmaqda olduğu məlum oldu. Bu zaman Köçəryan layihəyə mane ola bilməyəcəklərini qəbul etsə də, Ermənistanın BTQ-nin baş tutmaması üçün fasiləsiz çalışdığı şübhə doğurmurdu. ABŞ rəsmilərinin də layihəyə qarşı çıxması erməni diasporunun təsiri ilə bağlı idi. Robert Köçəryanın mətbuat katibi Viktor Soqomonyan bunu açıq şəkildə etiraf etmişdi: "Ermənistan və xarici ölkələrdəki erməni icmaları bu dəmiryol marşrutunun tikintisinə mane olmaq üçün bütün vasitələrə əl atdılar. Lakin təəssüf ki, layihəyə artıq bundan sonra müdaxilə etmək mümkün deyil. Layihə sırf siyasi səciyyəlidir və marşrutun inşası üçün heç bir iqtisadi əsas yoxdur."

Bəs yaxşı, əgər BTQ-nin "heç bir iqtisadi əsası" yox idisə, ermənilər niyə dəridən-qabıqdan çıxaraq layihəyə mane olmağa çalışırdılar? İş ondadır ki, Bakı–Tbilisi–Qars dəmiryol marşrutu bölgədə həmin dönəmədək ən mühüm, alternativsiz sayılan Tbilisi–Gümrü–Qars xəttini tam əvəzləyəcəkdi. Yəni, o dönəmdə Azərbaycan, Gürcüstan və Türkiyə öz aralarında da dəmiryol kommunikasiyalarını yalnız Gümrü–Qars sahəsindən keçməklə təmin edə bilərdilər. Qarabağ münaqişəsi səbəbindən bu mümkün deyildi.

BTQ-yə alternativ olaraq ermənilər İran–Ermənistan dəmir yolunu ön plana çəkməyə cəhd etdilər. Hayastanın o zamankı prezidenti Serj Sarkisyan 2008-ci ilin oktyabrında bəyan etmişdi ki, İran–Ermənistan dəmir yolu "ən yaxın vaxtlarda istifadəyə veriləcək". Amma bu, baş vermədi və baş verə də bilməzdi. Çünki bu layihənin iqtisadi baxımdan heç bir səmərəsi yox idi və sadəcə, bir xülya idi. BTQ-nin açılması Ermənistanın nəqliyyat blokadası ilə şantaj siyasətini sıradan çıxardı.

Bəs Zəngəzur dəhlizi işə düşdükdən sonra Bakı–Tbilisi– Qars dəmir yolunun taleyi necə olacaq? Əsas üstünlük Zəngəzur dəhlizinəmi veriləcək? Bakı–Tbilisi–Qars dəmir yolu və Zəngəzur dəhlizi müasir geosiyasi və iqtisadi mənzərədə mühüm yer tutan regional layihələrdir. Hər iki layihə Azərbaycan, Gürcüstan, Türkiyə və Mərkəzi Asiya ölkələrinin strateji maraqlarını qorumağa xidmət edir və regional nəqliyyat əlaqələrini gücləndirir. Bu layihələr bir tərəfdən iqtisadi əməkdaşlığı inkişaf etdirir, digər tərəfdən regional geosiyasi güc mübarizələrinə təsir göstərir. Ümumiyyətlə, Bakı–Tbilisi–Qars dəmir yolu Zəngəzur dəhlizinə alternativ deyil, çünki bu iki layihənin mahiyyəti, məqsədləri və fəaliyyət mexanizmləri fərqlidir. BTQ dəmir yolu fəaliyyət göstərən, Azərbaycan, Gürcüstan və Türkiyə arasında siyasi razılaşmalar əsasında reallaşmış, sabit və təhlükəsiz beynəlxalq nəqliyyat marşrutudur. Bu xətt Orta Dəhliz çərçivəsində Çin və Avropa arasında yüklərin daşınmasında mühüm rol oynayır və Ermənistan ərazisindən yan keçməklə bölgədə Azərbaycanın və Türkiyənin geosiyasi mövqeyini gücləndirir.

Zəngəzur dəhlizi isə hələ reallaşmayan layihədir. Dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə Türkiyəyə birbaşa çıxış məqsədi daşıyır. Bu layihə istifadəyə verildikdən sonra Naxçıvan iqtisadiyyatını inkişaf etdirərək Azərbaycana inteqrasiyasını təmin edəcək və regiondakı strateji balansı dəyişdirəcək. Zəngəzur dəhlizi həm də Türkiyə və Mərkəzi Asiya ölkələri ilə əlaqələri möhkəmləndirmək üçün bir vasitədir. Yükünü Zəngəzur dəhlizi ilə daşıyan dövlətlər və transmilli korporasiyalar regionun sabitliyində maraqlı olacaqlar. Azərbaycan beynəlxalq aləmdə daha nüfuzlu və güclü dəstəyi olan dövlətə çevriləcək. Deməli, dəhliz Bakı–Tbilisi–Qars dəmir yoluna rəqib deyil, onun fərqli vəzifəsi var: Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə logistik əlaqəsini təmin etmək.

Bu amil iqtisadi və hərbi-strateji baxımdan Azərbaycan üçün həyati əhəmiyyət kəsb edir. Lakin Ermənistan ərazisindən keçəcəyi üçün bu dəhlizin açılması siyasi iradə və regional razılaşmalar tələb edir. Həm də dəmir və avtomobil yolu yenidən qurulmalıdır.

İqtisadi baxımdan da bu iki layihə fərqli yönə sahibdir. BTQ artıq gəlir gətirən və beynəlxalq yükdaşımalarda istifadə olunan bir marşrutdur. Zəngəzur dəhlizi artıq reallaşma mərhələsinə yaxınlaşır və işə mdüşəcəyi təqdirdə regionda ticarət əlaqələrini və logistik imkanları xeyli artıracaq. Qeyd edək ki, hüquqi baxımdan BTQ sabit və razılaşdırılmış müqavilələrlə idarə olunur, Sirr deril ki, Zəngəzur dəhlizinin idarə edilməsi məsələsi Vaşinqtonu da maraqlandırır. Bütün hallarda BTQ xətti Zəngəzur dəhlizinə alternativ ola bilməz. Onlar fərqli coğrafi marşrutlara və fərqli məqsədlərə xidmət edir. Əksinə, bu layihələr bir-birini tamamlayan, Azərbaycanın regional rolunu gücləndirən təşəbbüslər kimi qiymətləndirilə bilər.

Beləliklə, Bakı–Tbilisi–Qars dəmir yolu və Zəngəzur dəhlizinin inkişafı bölgə ölkələrinin iqtisadi və siyasi müstəqilliyini gücləndirəcək. Bu layihələr, həm də beynəlxalq əlaqələrin gücləndirilməsi baxımından regional və dünya səviyyəsində əhəmiyyətli təsir göstərə bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Prezidentinin ABŞ-a səfəri dünya mediasında




**Birləşmiş Ştatların paytaxtında Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın Bakı ilə İrəvan arasında sülh sazişi ilə bağlı qarşıdakı görüşü dünyanın nüfuzlu media orqanlarının diqqət mərkəzindədir.**







**“Reuters”** agentliyinin dərc etdiyi geniş məqalədə qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan cümə günü Ağ evdə ABŞ Prezidenti Donald Trampla görüşəcəklər. Bu, görüş 40 ilə yaxındır davam edən münaqişənin həlli üçün sülh sazişi üzərində çalışan tərəflərin razılıq əldə edəcəyi ümidlərini gücləndirir.

Məqalədə qeyd olunur ki, Qarabağ bölgəsi beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınıb və Sovet İttifaqının süqutundan sonra ermənilər tərəfindən işğala məruz qalıb. Lakin 2020-ci və 2023-cü illərdə Azərbaycan həmin əraziləri azad edib. “Sülh sazişinin imzalanmasının qarşısında duran əsas maneələrdən biri Ermənistanın konstitusiyası məsələsidir. Azərbaycan Ermənistandan ölkənin 1990-cı il müstəqillik bəyannaməsinə istinad edən konstitusiyanın preambulasını dəyişdirməyi tələb edir... Bakı Ermənistan konstitusiyasında Qarabağa istinad edilməsini Azərbaycana ərazi iddiası kimi qiymətləndirir”, -deyə agentlik vurğulayır.

**“Reuters”** diqqətə çatdırır ki, sülh yolunda digər maneə Ermənistan ərazisindən təxminən 32 kilometrlik hissəsindən keçəcək və Azərbaycan ərazisinin böyük hissəsini Bakının müttəfiqi Türkiyə ilə həmsərhəd Azərbaycan anklavı olan Naxçıvanla birləşdirəcək təklif edilən tranzit dəhlizidir. “Azərbaycan dəhlizi istəyir, lakin İrəvanın tezliklə girişi ləğv edə biləcəyi ehtimalına görə Ermənistanın ona nəzarət etməsini istəmir. ABŞ planlaşdırılan dəhlizin idarəçiliyini öz üzərinə götürməyi təklif edib, lakin Ermənistan gələn il keçiriləcək seçkilər ərəfəsində Paşinyan üçün siyasi cəhətdən həssas olan perspektivə ehtiyatla yanaşıb”.




**Türkiyənin Anadolu agentliyinin** Vaşinqton müxbirinin məqaləsində qeyd olunub ki, Donald Tramp avqustun 7-də verdiyi açıqlamada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanı Ağ evdə qarşılayacağını səbirsizliklə gözlədiyini açıqlayıb. O qeyd edib: “Sabah (avqustun 8-də-red.) rəsmi sülh sazişi ilə bağlı sənədə imza atacaqlar”. ABŞ Prezidenti iki ölkənin uzun illərdir müharibə vəziyyətində olduğunu diqqətə çatdıraraq deyib: “Ermənistan və Azərbaycan xalqları üçün doğru olanı edən cəsur liderlərlə qürur hissi keçirirəm. Bu, Ermənistan, Azərbaycan, ABŞ, həmçinin dünya tarixi üçün tarixi bir gün olacaq”.

**ABŞ-ın Alman Marşal Fondunun (GMF) saytında** dərc olunan məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan may ayında sülh sazişi layihəsinin mətni üzərində razılaşdıqlarını bildiriblər. Bununla belə, Azərbaycan rəsmiləri layihənin tezliklə paraflanması ilə bağlı daha çox danışırlar. Bu əlavə prosessual addım siyasi baxımdan eskalasiya riskini müəyyən qədər azalda bilər. Azərbaycan tələb edir ki, Ermənistan konstitusiyasından ərazi iddiaları ehtiva edən bənd çıxarılsın, həmçinin iki ölkə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) birgə məktub göndərərək 1992-ci ildə onlar arasında münaqişənin sülh yolu ilə həllini asanlaşdırmaq üçün yaradılmış Minsk Qrupunu ləğv etməyi xahiş edir.

GMF qeyd edir: “Zəngəzur dəhlizi probleminin həlli isə daha çətindir. Bu, Azərbaycanın Ermənistanın Sünik vilayəti vasitəsilə öz Naxçıvan anklavına insanların və malların quru yolu ilə sərbəst hərəkət etməsi tələbinə aiddir”.

**“The Washington Post”** qəzetinin dərc etdiyi məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan rəsmilərinin Ağ evdə ABŞ-a strateji tranzit dəhlizinə müstəsna inkişaf hüququ verən sülh sazişi imzalayacağı gözlənilir. Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev cümə günü Ağ Evə gəlməyə hazırlaşır. ABŞ rəsmiləri “Reuters” agentliyinə bildiriblər ki, “Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu” adlanan pakt Azərbaycanı Ermənistan vasitəsilə Azərbaycanın eksklavı olan Naxçıvanla birləşdirəcək və ABŞ-a inkişaf hüququ verən sənəd olacaq.

Qəzet yazır: “Rəsmilər bildiriblər ki, Asiyadan Avropaya quru marşrutunu qısaldan dəhlizdə ABŞ həmin torpaqları infrastruktur və idarəetmə üçün konsorsiuma subicarəyə verəcək. Ümid odur ki, tranzit dəhlizi gələcək döyüşləri dayandıracaq və regionda kommunikasiyaları açacaq”.

**“The Guardian”** nəşrinin “Tramp Azərbaycanla Ermənistan arasında tarixi sülh sazişinə nail olacağını iddia edir” sərlövhəli məqaləsində qeyd olunur ki, ABŞ Prezidenti Donald Tramp cümə günü Ermənistan və Azərbaycan liderlərini iki keçmiş sovet respublikası arasında onilliklərlə davam edən hərbi əməliyyatlara son qoymaq məqsədi daşıyan “Tarixi sülh sammiti”nə ev sahibliyi edəcəyini açıqlayıb.

Qəzet vurğulayır ki, müxtəlif beynəlxalq münaqişələrdə vasitəçilik səylərinin Nobel Sülh mükafatına layiq olduğuna əminliyini ifadə edən ABŞ lideri əlavə edib ki, Vaşinqton “iqtisadi imkanları birgə həyata keçirmək üçün hər iki ölkə ilə” ikitərəfli müqavilələr imzalayacaq və bu, Cənubi Qafqaz regionunda potensialı ortaya çıxara bilər.

**“France24”** telekanalının saytında dərc olunan məqalədə Donald Trampın danışıqlarla bağlı fikirləri yer alıb, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtonda ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşü barədə məlumat verilib. Qeyd olunub ki, görüş əsnasında Azərbaycanın SOCAR və ABŞ-ın “ExxonMobil” şirkətləri arasında “Əməkdaşlıq haqqında Memorandum” imzalanıb. Tərəflər, həmçinin Azərbaycan liderinin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin ikitərəfli münasibətlərin gündəliyinin və regional məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı bildiriblər.

**“Politico”** nəşrinin “ABŞ Ermənistanla Azərbaycan arasında uzun sürən düşmənçiliyə son qoyur” sərlövhəli məqaləsində Ağ evin mənbələrinə istinadla qeyd edilir ki, uzun müddətdir davam edən münaqişənin yumşaldılmasının açarı tranzit dəhlizinə dair sazişdir ki, bu sənədə Azərbaycan və onun Zəngəzur dəhlizi kimi tanınan Naxçıvan anklavı arasında Ermənistan ərazisinin dağlıq hissəsinin inkişaf etdirilməsi öhdəliyi daxildir”. Nəşr yazır ki, birgə bəyannamə uzun müddətdir düşmən olan iki ölkə tərəfindən imzalanmış ilk ikitərəfli sənəd olacaq.

**“The Hill”** nəşri Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın Vaşinqton görüşünü tarixi hadisə adlandırıb və qeyd edib ki, Prezident Donald Tramp uzun illərdir düşmən olan bu iki ölkə arasında sülhə nail olunması səylərini yüksək qiymətləndirir. İmzalanması gözlənilən razılaşma ABŞ-ın iki ölkənin Sovet İttifaqından müstəqillik əldə etdikdən sonra yaranan münaqişəyə son qoymaq üçün onilliklər ərzində göstərdiyi səylərin kulminasiya nöqtəsidir.

***XQ***

# Zatulinin “Kassandralığı”

## *Yaxud Cənubi Qafqazda “Sülh günəşi” və “Şimal bayquşu”nun tutulan gözü*

**Rusiyadakı anti-Azərbaycan ritorikanın ən “parlaq” simalarından biri, Dövlət Dumasının MDB məsələləri və xaricdəki həmvətənlərlə iş komitəsinin sədr müavini Konstantin Zatulin yenə qızışıb. Görünür, Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtona yollanmaları və Cənubi Qafqazda sülh gündəmi ilə bağlı pozitiv mesajların səslənməsi kürkünə birə salıb.**

Əslində, Zatulinin boş-boş danışıqlarına fikir verməmək olardı. Necə deyərlər, it hürər, karvan keçər. Ancaq məsələnin başqa tərəfi var. İş ondadır ki, Zatulin həm də Ermənistandakı revanşist və şovinist kəsimin dili ilə danışır. Həmin kəsim isə hazırda “aktivləşib” və onun təmsilçilərinin qaldırdıqları vay-şivənə görə, Vaşinqtonda erməni dövləti və dövlətçiliyi üçün əklil hazırlanır.



Əlbəttə, ABŞ-ın barış təşəbbüsü fonunda Ermənistanı cənginə almış isterik durumun başqa təzahür formaları var. Onlardan biri revanşist kəsimin İranı qınamasıdır. Bu düşərgənin nəzərində baş nazir Nikol Paşinyanla İslam respublikasının Prezidenti Məsud Pezeşkian eyni ampluaadadır.  Guya, onların hər ikisi ölkələrinin maraq və mənafelərini satırlar…

Bir sözlə, hiss olunur ki, Ermənistanda Vaşinqtona baxışlar sivil siyasi paradiqmalardan, rasionallıqdan və proqmatizmdən uzaqdır. Halbuki, belə olmamalıdır. Çünki Azərbaycanın diktə etdiyi sülh, bütövlükdə, Cənubi Qafqaz xalqları üçün yüksək maddi və mənəvi dividend vəd edir və bu vəd real əsaslara malikdir. Həmin əsasları isə ölkəmiz 44 günlük müharibədən sonra formalaşdırıb. O əsaslar ki, hazırda dünya birliyi onların alternativsizliyi qənaətindədir.

***

Əlqərəz, K.Zatulin Ermənistanın Vaşinqtondakı danışıqlarda iştirakını sərt tənqid edib. Onun konkret nə dediyinə diqqət yetirəcəyik. Amma əvvəlcə onu bildirək ki, Zatulinin erməni təəssübü saxtadır, şəxsi mənfəətə söykənir. O, öz mənfəəti naminə hadisə və proseslərə Rusiyanın maraq və mənafeləri pəncərəsindən baxır. Daha doğrusu, sanki ölkəsini düşünürmüş kimi görüntü formalaşdırır.

Ancaq onu da unutmaq olmaz ki, zatulinlərin dilə gəlmələri Kremlin hakim siyasi dairələrinin də hərəkətə keçəcəklərinin anonsudur. O dairələr ki, Azərbaycan və Ermənistan arasında sülh mühitinin qərarlaşmasını qətiyyən arzulamırlar. Çünki ənənəvi imperiya xislətlərini kənara qoymaq niyyətindən uzaqdırlar. Zatulin digərlərindən öz mənfur xislətini əsil sancıya çevirməsi ilə fərqlənir. Ona görə də bildirir ki, iki Cənubi Qafqaz liderinin Vaşinqtonda bir araya gəlib sənəd imzalamalarının heç bir nəticəsi olmayacaq.

Ermənistandakı revanşist-şovinist kəsim Vaşinqton danışıqları fonunda İranı qıcıqlandırmağa səy göstərirsə, Zatulin İranla yanaşı, Rusiyanı da sərt tədbirlərə əl atmağa təşviq edir. Məsələn, o, bir tərfədən Azərbaycan və Ermənistan liderləri arasında yazılı razılaşmanın əhəmiyyətini heçə sayır, digər yandan məsələnin, guya, qlobal mahiyyətini qabardaraq vurğulayır ki, sözügedən razılaşma ABŞ-ın Rusiyanı və İranı regiondan sıxışdırmasıdır: “Bu razılaşma nəticəsində Amerika regiona gəlir, Rusiya və İran isə bununla barışmalı olur”.

Qeyd edək ki, Zatulin bildirdikləri fikirlərlə erməni cəmiyyətinə hakim kəsilmiş başqa mənfi stereotipləri də hərəkətə keçirmək barədə düşünür. Ona görə Zəngəzur dəhlizi və Türkiyə mövzusunu ortaya atır. Komitə sədri bildirir ki, Paşinyandan istifadə edən Türkiyə Ermənistan ərazisindən birbaşa Azərbaycana, Xəzərə və Orta Asiyaya yol açacaq. Bununla yanaşı, NATO və ABŞ da öz bonuslarını əldə edəcəklər.

Zatulinin üzərində dayandığı ən mühüm məqamlardan biri də odur ki, Zəngəzur dəhlizinin işə düşməsi ilə Qərb-Şərq dəhlizi dövriyyə girəcək və bu, Rusiyanın və İranın ənənəvi Şimal-Cənub dəhlizinin taleyini şübhə altına alacaq. Halbuki, məsələnin belə qoyuluşu yolverilməzdir. Çünki Zəngəzur dəhlizi Rusiya kimi, İranın da mənafelərini nəzərə alan layihədir və məsələ barədə istər Azərbaycan, istərsə də Türkiyə tərəfinin çoxsaylı açıqlamaları var. Habelə, onu da unutmaq olmaz ki, ənənəvi marşrutların əhəmiyyətini itirməsi mümkünsüzdür. Çünki Zəngəzur dəhlizi, yaxud Qərb-Şərq dəhlizi və ya Orta Dəhliz təşəbbüsü beynəlxalq yükdaşımalar üzrə artan tələbatları qarşılamaq məramından qaynaqlanır.

***

İndi isə keçək Zatulinin birbaşa Ermənistan əleyhinə dediklərinə. Komitə sədri ölkəni mövcud düzəndəki ən alçaq iştirakçı kimi qələmə verib. Onun bildirdiyinə görə, baş nazir Paşinyanın mövqeyi, heç bir halda, erməni milli maraqları kontekstində qiymətləndirilə bilməz. Zatulin fikrini əsaslandırmaq üçün yaxın keçmişə üz tutub və bildirib ki, Zəngəzur dəhlizi ideyası 2020-ci ilin 44 günlük müharibəsi ilə leqallıq qazanıb.

Bəli, Zatulin Ermənistanın müharibədəki məğlubiyyətini qabardır. Şübhəsiz ki, bu, haqqında söz açdığımız revanşist-şovinist kəsimi qıcıqlandırmaq niyyətidir. Ancaq onun 44 günlük müharibəni xatırlatmaqda konkret məqsədi də var. Komitə sədri deyib ki, savaşın yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda yer alan müddəalarda Ermənistan və Qarabağ arasındakı Laçın dəhlizini hipotetik Zəngəzur dəhlizi ilə dəyişmək məramı ifadə olunmuşdu. “Amma indi Qarabağda erməni yoxdur, Laçın dəhlizi də yoxdur. Onlarla birlikdə Rusiyayla hər hansı məsələdə razılaşma zərurəti də aradan qalxıb”, – deyən komitə sədrinin sözlərindən gəlinən qənaət budur ki, guya Azərbaycan üçtərəfli bəyanata məhəl qoymayıb, indi isə Zəngəzur dəhlizinə sabiblənərək daha da irəli gedir. Heç şübhəsiz, belə bir mövqe də qızışdırıcılığa hesablanıb.

Nəhayət, Zatulin Vaşinqton görüşünün iştirakçılarının Rusiya ilə nümayişkaranə şəkildə mübahisəyə girişdikləri məntiqini qabardıb. Komitə sədrinin fikrincə, hazırda belə bir mübahisənin meydana çıxmasının səbəbi Ukrayna müharibəsi və Qərblə münaqişə səbəbindən Kremlin regionda zəifləməsidir. Zatulin təklif də verib. “Bizim məqbul nəticə əldə etməyimiz üçün (Ukraynadakı – red.) Xüsusi Hərbi Əməliyyatı mümkün qədər tez bitirməyimiz lazımdır”, - deyən komitə sədri ölkəsində Ukraynaya qarşı əməliyyatların sonsuzadək davamı ideyasının tərəfdarlarının əleyhinə çıxıb və deyib ki, Prezident Vladimir Putinin diplomatik səyləri başadüşüləndir. Onun fikrincə, Rusiya liderinin məqsədi təkcə Ukrayna ilə müharibəni yekunlaşdırmaq yox, həm də ABŞ Prezidenti Donald Trampla təmaslardan öz payını almaq və ya qorumaqdır: “Sonsuz hərbi əməliyyat tərəfdarları başa düşməlidirlər ki, onlar Ukraynanın sonuncu əsgərinədək döyüşməsini istəyən İngiltərə və Avropa İttifaqındakı rusofoblardan fərqlənmirlər. Bu zaman isə hər yerdə Rusiyanı sıxışdırmaq istəyirlər”.

Sonda onu da bildirək ki, K.Zatulin mövzu ilə bağlı özünün “Telegram” kanalında bölüşdüyü fikirlərini “artıq Kassandra olmaqdan yoruldum”, – deyərək yekunlaşdırıb. Komitə sədrinin məşhur “Kassandra sindromu” ifadəsinə istinadı aşkardır. Məlum olduğu kimi, sözügedən ifadə qədim yunan mifologiyasındakı Troya şahzadəsi Kassandranın hekayəsindən qaynaqlanır. Hekayədə Kassandra Apollon tərəfindən gələcəyi görmək qabiliyyəti ilə mükafatlandırılır. Ancaq o, Apollonu rədd edir və buna görə lənətlənir. Nəticədə Kassandra gələcəyi görsə də, dediklərinə heç kim inanmır.

Beləliklə, müasir psixologiyada və gündəlik dildə “Kassandra sindromu” insanın gerçək təhlükəni, problemi və ya gələcəkdə olacaq hadisəni açıq şəkildə görə bilməsi, dəfələrlə xəbərdarlıq etməsi, ancaq ətrafdakıların onu ciddi qarşılamamalarıdır. Nəticədə, proqnoz verən şəxsdə güclü ümidsizlik, əsəbilik və təcrid hissi yaranır. Əlavə şərhə ehtiyac duymur, nə də hesab etmirik ki, Zatulinin indiyədək bildirdikləri fikirlərdə hansısa düzgünlük olub. Amma bir halda ki, komitə sədri qeyri-ciddi qarşılanmaqdan bezib, böyük məmnuniyyətlə ona Kassandranın düşdüyü durumu arzulaya bilərik. Niyyətimiz pis deyil, çünki Zatulinin üzləşdiyi xəstəliyin depressiyaya düşüb susmaqdan başqa çarəsi yoxdur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan – ABŞ enerji əməkdaşlığında yeni addım

## "ExxonMobil" ölkəmizdə fəaliyyətini genişləndirir

**Avqustun 7-də Vaşinqton şəhərində Azərbaycanın enerji diplomatiyasında mühüm hadisə baş verdi. Prezident İlham Əliyev və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və dünyanın aparıcı enerji şirkətlərindən biri olan "ExxonMobil" arasında əməkdaşlıq haqqında memorandum imzalandı. Bu sənəd iki ölkə arasında uzun illərdir ki, uğurla inkişaf edən enerji tərəfdaşlığının yeni, daha strateji bir mərhələyə qədəm qoyduğunu göstərir.**




Azərbaycan və "ExxonMobil" əməkdaşlığı yeni deyil. Bu münasibətlərin təməli hələ 1990-cı illərin əvvəllərində, ölkəmiz müstəqilliyini yenicə bərpa etdiyi dövrdə qoyulub. Məhz həmin vaxt Azərbaycan xarici sərmayəni cəlb etməklə enerji sektorunun inkişafnı diqqətdə saxladı və ABŞ-ın aparıcı şirkətləri, xüsusilə də "ExxonMobil" və "Chevron" bu prosesin ön sıralarında yer aldı.

İyunun 2-də Prezident İlham Əliyevin "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardilli ilə görüşü də bu etibarlı tərəfdaşlığın davamlılığının göstəricisi idi. Görüş zamanı şirkətin Azərbaycanda uzunmüddətli fəaliyyəti, xüsusilə "Azəri–Çıraq–Günəşli" (AÇG) layihəsində səhmdar kimi fəal iştirakı xüsusi vurğulandı. Bu layihə yalnız Azərbaycanın deyil, bütövlükdə Xəzər regionunun enerji xəritəsində mühüm yer tutur.

Yeni imzalanmış memorandum SOCAR ilə "ExxonMobil" arasında enerji sektorunda strateji əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutur. Buraya neft-qaz hasilatı, emalı, yeni texnologiyaların tətbiqi, eləcə də bərpa olunan enerji mənbələri üzrə perspektiv layihələr daxildir. Sənədin imzalanması Azərbaycan – ABŞ enerji dialoquna əlavə güc verir, qarşılıqlı investisiya imkanlarını genişləndirir.

Bununla yanaşı, memorandum iki tərəf arasında təcrübə mübadiləsi, innovativ həllərin tətbiqi və enerji təhlükəsizliyi sahəsində koordinasiyanı da artıracaq. Bu, Azərbaycanın "yaşıl" keçid strategiyasına uyğun olaraq, enerji resurslarından səmərəli istifadə və ekoloji standartların yüksəldilməsi istiqamətində mühüm addımdır.

ABŞ-ın "ExxonMobil" və "Chevron" kimi energetika nəhəngləri səhmdarlarının mənfəətini maksimuma çatdırmaq mandatına malik ictimai şirkətlərdir. Onlar biznes və investisiya qərarlarını peşəkar bazar prinsiplərinə əsaslanaraq qəbul edir və Azərbaycanın enerji sektorunda uğurla fəaliyyət göstərirlər. Xüsusilə "ExxonMobil"in ölkəmizdəki fəaliyyəti yalnız neft-qaz hasilatı ilə məhdudlaşmır, o, həm də sosial layihələrdə, kadr hazırlığında, yerli təchizatçıların inkişafında mühüm rol oynayır. Hazırda ABŞ-ın digər bir çox xidmət təminatçıları da Azərbaycanın enerji sektorunda uğurla fəaliyyətini davam etdirir, texnologiya, mühəndislik, logistika və digər sahələrdə mühüm dəstək göstərirlər.

Azərbaycan – ABŞ enerji tərəfdaşlığı təkcə iqtisadi mənfəət deyil, həm də geosiyasi sabitlik və regional enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyır. Respublikamız Xəzər regionunun əsas enerji ixracatçılarından biri olaraq Avropa və dünya bazarlarının enerji təchizatında strateji mövqeyə sahibdir. Bu baxımdan "ExxonMobil" ilə əməkdaşlıq Azərbaycanın enerji infrastrukturunun modernləşdirilməsi, ixrac marşrutlarının şaxələndirilməsi və hasilat texnologiyalarının təkmilləşdirilməsi üçün əlavə imkanlar yaradır. Bu, həm də Azərbaycanın enerji siyasətinin uzunmüddətli dayanıqlığını təmin edir.

Memorandumun imzalanması ilə SOCAR və "ExxonMobil" qarşıdakı illərdə ortaq layihələr üzərində daha fəal işləmək, innovativ texnologiyaları Azərbaycana gətirmək və enerji hasilatında səmərəliyi artırmaq niyyətindədir. Bu əməkdaşlıq respublikamızın enerji sektorunun dünya standartlarına uyğun inkişafına, ölkə iqtisadiyyatına əlavə valyuta axınının təmin edilməsinə və qeyri-neft sektoruna investisiyaların artmasına təkan verəcək.

Bütün bunlar onu göstərir ki, Azərbaycan və ABŞ arasında enerji tərəfdaşlığı gələcəkdə daha da möhkəmlənəcək, regional və qlobal enerji bazarlarında ölkəmizin rolunu daha da gücləndirəcək. Vaşinqtonda imzalanan bu memorandum isə həmin yolun ən mühüm mərhələlərindən biri kimi tarixə düşəcək.

Qeyd edək ki, ABŞ-ın "ExxonMobil" şirkəti biznes və investisiya qərarlarını səhmdarlarının mənfəətini maksimuma çatdırmaq üçün mandatına uyğun qəbul edən ictimai şirkətdir. Bu energetika şirkəti 1990-cı illərin əvvəllərindən Azərbaycanda səmərəli fəaliyyət göstərir və xarici bazarlara giriş və çıxışla bağlı kommersiya qərarlarını uğurla həyata keçirir. Hazırda səhmdarlarının mənfəətini maksimuma çatdırmaq üzrə eyni səlahiyyətdə olan ABŞ-ın bir çox xidmət təminatçısı da respublikamızın enerji sektorunda fəaliyyətini yüksək səviyyədə davam etdirir.

"ExxonMobil"in təşəbbüsləri təkcə enerji istehsalını təkmilləşdirməyi vəd etmir, həm də regionda iqtisadi artımı stimullaşdırmaq məqsədi daşıyır. Böyük sərmayələr yatırmaqla və qaz kəşfiyyatına qabaqcıl texnologiya gətirməklə şirkət enerji sektorunda lider mövqeyini gerçəkləşdirməyə çalışır.

Sözügedən şirkət fəaliyyətində, eyni zamanda, metan emissiyalarının, əməliyyat xərclərinin azaldılmasını, hasilatın artırılmasını gerçəkləşdirən müasir texnologiyaların tətbiqi ilə həyata keçirilən layihələrin icrasını, karbohidrogen sektorunda enerji təchizatının elektrikləşdirilməsini, eləcə də hidrogenin inkişafı istiqamətində görülən işlərin miqyasının genişləndirilməsini də diqqətdə saxlayır.

"ExxonMobil"in bu istiqamətdə reallaşdırılan layihələrə önəm verməsi təsadüfi deyil. Çünki Azərbaycanın enerji balansında neft–qazın, bərpa olunan enerjinin yer almasını dəstəkləyən enerji siyasəti, müxtəlif marşrutları əhatə edən "yaşıl" enerji dəhlizləri, eləcə də bərpa olunan enerjinin elektrik enerjisinin istehsal gücündə 2030-cu ildə 35,5 faizə çatdırılması hədəfi hazırda prioritet istiqamətlərdir.

### Ekspert rəyi



**Eyyub KƏRİMLİ,**
**İqtisadçı – ekspert**

Avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Vaşinqtonda SOCAR və "ExxonMobil" arasında imzalanmış əməkdaşlıq memorandumu Azərbaycanın enerji diplomatiyasında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilməlidir. Bu, sadəcə, birgə layihə deyil, ölkəmizin iqtisadi, texnoloji və geosiyasi gələcəyini formalaşdıracaq strateji platformadır. Mərasimdə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı isə bu əməkdaşlığın təkcə korporativ deyil, həm də strateji-siyasi əhəmiyyət daşıdığını göstərir.

Sənəd ölkəmizin enerji strategiyası və dünya enerji bazarlarında mövqeyi baxımından ciddi strateji və maliyyə nəticələri vəd edir. Dünyanın ən böyük və nüfuzlu enerji şirkətlərin olan "ExxonMobil"lə əməkdaşlıq yalnız texnoloji və maliyyə dəstəyi deyil, həm də beynəlxalq enerji bazarlarında geosiyasi çəki deməkdir. Belə ki, ABŞ-ın enerji nəhəngi ilə əməkdaşlıq SOCAR-a dərin qazma, neft-kimya texnologiyaları və alternativ enerji sahələrində texniki biliklər və təcrübə qazandıracaq. Bu, xüsusilə dəniz yataqlarının işlənməsi və karbonsuz texnologiyalara keçid baxımından önəmlidir. Eyni zamanda, "ExxonMobil"in sərmayəsi SOCAR-ın iri enerji layihələrində maliyyə yükünü bölüşdürməyə imkan verəcək. Gələcəkdə Azərbaycanın enerji sektoruna xarici kapital axını artacaq ki, bu da dövlət büdcəsinə və Neft Fonduna daha daha çox vəsaitin daxil olmasına imkan yaradacaq.

"ExxonMobil"lə əməkdaşlıq Azərbaycanın Avropa və Asiya bazarlarında etibarlı tərəfdaş statusunu gücləndirməyə imkan yaradır. Bu, xüsusilə "yaşıl enerji keçidi" dönəmində təmiz texnologiyaların tətbiqində önəm daşıyır. Bütövlükdə, ABŞ-la strateji enerji əməkdaşlığı Azərbaycanın Transatlantik enerji dialoqunda yerini möhkəmləndirir. Hazırkı şəraitdə regionda Azərbaycanın geosiyasi əhəmiyyətinin artması, Qafqazda sabit enerji axını Qərb üçün xüsusi önəm daşıyır. Heç şübhəsiz, belə əməkdaşlıqlar SOCAR-ı regional oyunçudan qlobal enerji tərəfdaşına çevirə bilər. Ümumilikdə, Azərbaycanın enerji siyasətində ABŞ ilə sıx əməkdaşlıq ölkəmiz üçün Avropa və Asiya bazarlarında etibarlı, balanslı və çevik mövqe təmin edəcək.

# Rəqəmsal İpək yolu

## *Transxəzər kabel xətti Mərkəzi Asiyadan Avropaya rabitə körpüsüdür*






**Avropa ilə Asiya arasında yeni rəqəmsal dəhlizin yaradılmasını nəzərdə tutan "Rəqəmsal İpək yolu" (Digital Silk Way) layihəsinin mühüm komponenti olan Transxəzər fiber-optik kabel xəttinin tikintisi üzrə dəniz marşrutunun öyrənilməsinə başlanılıb.**

Tədqiqat işləri sahilyanı ərazilərin təhlili və dəniz dibinin detallı araşdırılması mərhələlərini əhatə edəcək. Bununla yanaşı, dəniz tədqiqatları strateji əhəmiyyətə malik layihənin inşası üçün ən qısa, təhlükəsiz və ekoloji cəhətdən dayanıqlı marşrutun müəyyənləşdirilməsinə imkan verəcək. Azərbaycan və Qazaxıstanda paralel olaraq başlayan tədqiqat işləri 4 həftəyə qədər davam edəcək.

Transxəzər kabel xətti layihəsi Azərbaycanın magistral internet provayderi olan "AzərTelecom" şirkəti və Qazaxıstanın milli telekommunikasiya operatoru "Kazakhtelecom" arasında tərəfdaşlıq çərçivəsində həyata keçirilir. ABŞ-ın "Pioneer Consulting" şirkəti isə layihəyə texniki nəzarət və məsləhət dəstəyi göstərir.

Bugünlərdə "AzərTelecom"un Direktorlar Şurasının sədri Emil Məsimov və şirkətin rəhbər heyəti tədqiqat işlərini həyata keçirəcək "Türkan" gəmisinin texniki imkanları ilə tanışıb olub, müasir avadanlıqlara baxış keçiriblər. "AzərTelecom"un rəhbəri gəmi heyəti və mühəndislərlə görüş zamanı layihənin strateji əhəmiyyətini vurğulayaraq deyib: "Transxəzər fiber-optik kabel xətti layihəsi çərçivəsində işlər sürətlə aparılır və dəniz marşrutu tədqiqatını həyata keçirməklə biz layihənin tikintisi üzrə əsas mərhələnin icrasına başlayırıq. Regional rəqəmsal bağlantını gücləndirəcək və Xəzər dənizini qlobal rəqəmsal infrastrukturun vacib hissəsinə çevirəcək layihənin bu mərhələsinin həyata keçirilməsi üçün ən qabaqcıl texnologiyalar və peşəkar mütəxəssislər cəlb olunub. Əminəm ki, həm Azərbaycan, həm də Qazaxıstan tərəfində işlər planlaşdırılan qrafikə uyğun olaraq uğurla yekunlaşdırılacaq".

Qeyd edək ki, Transxəzər fiber-optik kabel xətti layihəsi çərçivəsində Sumqayıt (Azərbaycan) və Aktau (Qazaxıstan) arasında Xəzər dənizinin dibi ilə 380 kilometr uzunluğunda fiber-optik kabel xətti çəkiləcək. Planlaşdırılan 400 Tbit/s ötürmə qabiliyyəti ilə bu sualtı rabitə xətti böyük həcmdə məlumat ötürülməsini təmin edəcək. Tikinti işlərinin 2026-cı ilin sonunadək tamamlanması planlaşdırılır. Layihənin icraçıları Azərbaycanın "AzərTelecom" və Qazaxıstanın "Kazakhtelecom" şirkətləridir.

Yeri gəlmişkən, "AzərTelecom" dünyanın 11 ölkəsində enerji, tikinti və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən "NEQSOL Holding"in tərkibində olan "Azerconnect Group"a daxildir. "AzərTelecom" Azərbaycanın aparıcı telekommunikasiya şirkəti olmaqla topdansatış operatoru səviyyəsində rabitə xidmətləri, eləcə də rəqəmsal və digər xidmətlər təqdim edir. Müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən şirkət yerli, regional və beynəlxalq istiqamətlərdə sürətlə inkişaf edir, həmçinin cəmiyyətin və İKT sektorunun dayanıqlı inkişafını təmin etmək üçün daim qabaqcıl texnologiyaları və innovasiyaları tətbiq edir.

"Kazakhtelecom" Qazaxıstanın ən böyük telekommunikasiya şirkətidir və milli telekommunikasiya operatoru statusuna malikdir. Şirkət sabit telefon, genişzolaqlı internet, rəqəmsal televiziya, mobil rabitə və digər telekommunikasiya xidmətləri təqdim edir.

"Rəqəmsal İpək yolu" layihəsinin mühüm hissəsi olan Transxəzər kabel xətti Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan daxil olmaqla bir sıra ölkələrdən keçən rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasını nəzərdə tutur. Kabel xəttinin tikintisi bir neçə mərhələdə həyata keçiriləcək. Bu mərhələlərə sahilyanı ərazilərin və dəniz dibinin qiymətləndirilməsi, yüksək keyfiyyətli və davamlı kabellərin layihələndirilməsi və istehsalı, onların daşınması və quraşdırılması daxildir. "AzərTelecom" və "Kazakhtelecom" şirkətləri tikinti işlərini 2026-cı ilin sonuna qədər yekunlaşdırmağı planlaşdırır.

Qeyd edək ki, Avropa ilə Asiya arasında ölkəmiz vasitəsilə rəqəmsal telekommunikasiya dəhlizini formalaşdıracaq "Rəqəmsal İpək yolu" layihəsi Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilən Mərkəzi Asiya Dövlətləri Başçılarının V Məşvərət Görüşündə həyata vəsiqə alıb. Tədbirdə fəxri qonaq qismində iştirak etmiş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışında "Rəqəmsal İpək yolu" layihəsinin əhəmiyyətini vurğulayaraq fiber-optik infrastrukturun yaradılmasını ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi kimi dəyərləndirib.

Beynəlxalq və regional səviyyədə diqqət mərkəzində olan "Rəqəmsal İpək yolu" layihəsinə Türk Dövlətləri Təşkilatı tərəfindən də maraq olduqca yüksəkdir. Qurumun 2022-ci il noyabrın 11-də Özbəkistanın paytaxtı Səmərqənd şəhərində keçirilmiş IX Zirvə Görüşünün yekunlarına dair imzalanmış Səmərqənd Bəyannaməsində üzv dövlətlər arasında əməkdaşlığı genişləndirəcək "Rəqəmsal İpək yolu" layihəsi çərçivəsində Transxəzər fiber-optik kabel infrastrukturunun əhəmiyyəti, sözügedən layihənin həyata keçirilməsində IT infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı fəaliyyətlərin davam etdirilməsinin vacibliyi vurğulanıb. Bundan əlavə, "2022-2026-cı illər üzrə Türk Dövlətləri Təşkilatı Strategiyası"nda da Xəzərin dibi ilə Transxəzər fiber-optik kabel xəttinin icrasının sürətləndirilməsi, Avropa ilə Asiya arasında yüksək ötürmə gücünə sahib olacaq fiber-optik internet xəttinin qurulması prioritet vəzifə olaraq qeyd olunub.

"Rəqəmsal İpək yolu" layihəsi Avropa ilə Asiya arasında Azərbaycan vasitəsilə məlumat mübadiləsi ehtiyaclarını ödəyəcək region ölkələri üçün strateji əhəmiyyətli bir layihədir. Təsadüfi deyil ki, layihə ABŞ-da Qlobal Strateji İnfrastruktur Liderlik Forumunda Asiyada 5 ən yaxşı strateji infrastruktur tədbirindən biri kimi seçilib. Belə bir strateji layihənin işə düşməsi, heç şübhəsiz, Qafqaz, Mərkəzi və Cənubi Asiya da daxil olmaqla bütün regionda rəqəmsallaşmanın inkişaf etdirilməsinə və rabitənin daha geniş yayılmasına təkan verəcək.

# Ölkəmizin iqtisadi potensialı Vaşinqtonda maraq doğurur

**Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəflə birlikdə "SpaceX" şirkətinin vitse-prezidenti Stefani Bednareklə görüşüb. Nazirlikdən bildirilib ki, söhbət zamanı qlobal çağırışlar və yeni trendlər fonunda Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı, potensialı, strateji inkişaf istiqamətləri və əlverişli investisiya mühiti vurğulanıb.**





Qeyd edilib ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi nəticəsində yeni bilik və bacarıqların diqqətdə saxlanıldığı sahələrin inkişafı üçün möhkəm baza yaradılıb. Bunun nəticəsində iqtisadiyyatda innovasiyaların tətbiqi və rəqəmsallaşmanın genişləndirilməsi sürətlənib. "SpaceX" şirkəti ilə əməkdaşlıq perspektivləri, o cümlədən innovativ və kosmik texnologiyaların, süni intellekt həllərinin tətbiqi, bilik və təcrübə transferi sahəsində tərəfdaşlıq imkanları da müzakirə olunub.

Səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov və Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf bu ölkənin İxrac – İdxal Bankının prezidenti və sədrinin baş müşaviri Dan Neqreanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşüblər. Qarşı tərəfə Azərbaycanda iqtisadi inkişaf və şaxələndirmə sahəsində əldə olunan nailiyyətlər haqqında məlumat verilib. Ölkə iqtisadiyyatında yüksək əlavə dəyər yaradan sahələr üzrə irəliləyişlər, xarici tərəfdaşlarla əlaqələrin gücləndirilməsi, böyük investisiya layihələrinin icrası üçün açılan yeni perspektivlər qeyd edilib.

*

Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Ağ evin Elm və Texnologiya Siyasəti İdarəsinin direktoru Maykl Kratsios ilə də görüşüb.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin ikitərəfli münasibətlərin gündəliyinin müzakirəsi, strateji müstəvidə tərəfdaşlığın inkişafı üçün əlverişli zəmin yaratdığı vurğulanıb.

Müzakirələrdə Azərbaycanın strateji coğrafi mövqeyi, iqtisadiyyatın şaxələndirilməsi üçün həyata keçirilən islahatların uğurlu nəticələri, qeyri-neft-qaz sektorunun inkişafı, əlverişli biznes və investisiya mühiti qeyd olunub.

Görüşdə texnoloji innovasiyalar, elmi yeniliklər və süni intellektin iqtisadi transformasiyada fundamental rolu vurğulanıb. Azərbaycanın regionda strateji bilik və innovasiya mərkəzinə çevrilməsi üçün görülən işlər, bu istiqamətdə ölkələrimiz arasında əməkdaşlıq potensialının reallaşdırılması imkanları qeyd olunub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qərbi Azərbaycana Qayıdış bəşəri hüqüqun tələbidir

**Akademik Fikrət Əliyev Meğri rayonunun, doğulub-böyüdüyü Nüvədi kəndinin tarixi, Qərbi Azərbaycanın zəngin mədəni irsinə verdiyi töhfə barədə XQ-yə bildirdi:**

– Meğri adının mənası ilə bağlı fikirlər müxtəlifdir: əsaslısı da var, əsassızı da. Məsələn, ermənilər iddia edirlər ki, Meğri sözündəki "meğ" "bal" mənasını verir. Bu, ağ yalandır. Çünki rayonun ermənilərə aidiyyatı yoxdur. Bu söz qədim zamanlarda həmin ərazidə yaşamış türksoylu Mığır tayfasının adından yaranıb. Qeyd edim ki, atam Əhmədəli Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" adlı kitabı var. Həmin kitabda xüsusi vurğulanır ki, Meğri əhalisi türk tayfalarından ibarətdir, o cümlədən də Mığır tayfasından. Təsəvvür edin, o boyda geniş ərazidə bir dənə də olsun erməni toponimi yoxdur, hamısı Azərbaycan mənşəlidir.

Nüvədi də tarixən azərbaycanlıların yaşadığı bir ərazi olub. Hətta İstanbulda mən tarixi sənədləri araşdırarkən şahidi olmuşam ki, Nüvədi ilk dəfə Osmanlı mənbələrində 1593-cü ildə Rəvan bəylərbəyliyinin (İrəvan əyaləti) Masırı nahiyəsində (inzibati bölgü vahidi) 25 təsərrüfatdan ibarət kənd kimi qeyd edilib.





İşğala qədər Nüvədi kəndinin ərazisi 270 kvadratkilometr olub. Bu kənd Meğri rayonunun ərazisinin təxminən 40 faizini əhatə edib. 1929-cu ilədək inzibati ərazi bölgüsü cəhətdən Cəbrayıl qəzasına tabe olub - Azərbaycan torpağı olub. Əvvəllər Naxçıvan – Ordubad ərazisi, sonra Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının ərazisinə daxil edilib. 1979-cu ilin statistikasına görə kəndin əhalisi sayı 1700 nəfərə çatıb. Nüvədi camaatı hər zaman yüksək təhsil səviyyəsi ilə seçilib, bölgədə maarifçilik ənənəsinin də daşıyıcısı olub.

**– Nüvədililər ermənilərin törətdikləri hər 3 soyqırımına məruz qalıblar. Lakin onlar Qərbi Azərbaycanı ən sonuncu tərk edən icma kimi tanınırlar.**

– Kəndin taleyi, həqiqətən, çox qəribədir. 1905-1906-cı, 1918-ci illərin qırğınları, deportasiyası öz yerində. Amma 1929-cu ildə başqa bir faciə yaşanıb. Bütün bunlar ermənilərin törətdikləri terrorların sistemli olduğunu göstərir. Yəni bizə qarşı təzyiqlər həmişə olub. Məsələn, 1906-cı ildə qonşu kənddən ermənilər hücum ediblər, amma əhali müqavimət göstərərək təslim olmayıb. Şiddətli döyüş və mühasirə bir aya yaxın davam edib. Sursat və azuqə tükəndiyinə görə camaat kənddən çıxmağa məcbur olub.

Təxminən, 3 il sonra nüvədililər viran olmuş kəndə qayıdıb onu bərpa edərək yenidən yaşamağa başlayıblar. Bu qırğın və talan 1918-ci ildə də təkrarlanıb. Babam danışırdı ki, 1918-ci ildə ermənilər hücum etdilər, evləri yandırdılar, dağıtdılar. Biz 3 gün döyüşdük, top-tüfəngin qarşısında camaatı qırğına vermədik, nəhayət, kənddən çıxmağa məcbur olduq. Bir də Nüvədiyə 3 ildən sonra qayıtdıq. Evlərimizi, təsərrüfatlarımızı yenidən bərpa etdik. Amma ermənilər bizə qarşı müxtəlif təzyiqlərdən, təhdidlərdən əl çəkmədilər.

**– Dediniz ki, 1929-cu il hadisəsi daha faciəli olub...**

– Ümummilli lider Heydər Əliyev bu qəsd barədə dəfələrlə söz açmışdı. SSRİ rəhbərliyi Naxçıvanla Azərbaycanın digər bölgələrini ayıran Meğrinin ərazisini daha da genişləndirmək istəyirdi. Buna görə də Zəngəzur, o cümlədən Meğri və Nüvədi sovet dövründə ermənilərə verildi. Prezident İlham Əliyev də həmişə bu tarixi həqiqəti vurğulayır. Qeyd edim ki, o vaxt Meğrinin Naxçıvanla Azərbaycanın digər bölgələrini ayıran hissəsi yalnız 11 kilometr idi. Sonradan bu yola Ordubadın Kilit kəndinə məxsus torpaqların bir hissəsi, Aldərə və bir neçə başqa kəndin də əraziləri əlavə edilərək məsafə 46 kilometrə çatdırılıb.

1929-cu ildə ermənilər Moskvaya müraciət edərək həmin torpaqların, o cümlədən bizim kəndimizin onlara verilməsini tələb ediblər. Həmin vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Levon Mirzoyan olub. Müraciət qəbul edilib və bu ərazilər qeyri-qanuni olaraq ermənilərə bağışlanıb. 1969-cu il mayın 8-də – ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinə 2 ay qalmış Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bu məsələyə baxıb və Ali Sovetə tövsiyə olunub ki, o torpaqlar ermənilərə verilsin. Beləliklə, həmin torpaqların ermənilərə verilməsi rəsmiləşdirilib.

Xatirimdədir, 1980-ci illərin sonunda nüvədililər Azərbaycan Ali Sovetindən tələb edirdilər ki, həmin qərar ləğv olunsun. Hətta Nüvədi ziyalıları müraciət edərək məsələni Azərbaycan Ali Sovetinin gündəliyinə çıxarmaq istyirdilər. Lakin o zaman bu alınmadı.

**– Sonuncu deportasiya zamanı nüvədililərin uzun sürən mübarizəsi onlara hədsiz ağrı-acılar hesabına başa gəldi.**

– Qərbi Azərbaycanda azərbaycanlılara qarşı deportasiya siyasəti 1987-ci ildən başladı və 1988-ci ildə sürətləndi. Noyabr ayında isə yalnız Nüvədi camaatından başqa, bütün azərbaycanlı əhali dədə-baba yurdlarından zorla didərgin salındı. 1989-cu ildən ermənilər diqqətini Nüvədiyə yönəltdilər və vəziyyət daha da gərginləşdi. Ancaq kənd camaatının müqaviməti sayəsində Nüvədi 1991-ci ilə qədər alınmaz qala oldu

Camaat Nüvədidən çıxan gün mən Moskvaya getmişdim. Kremldə sovet rəhbəri Qarbaçovun qəbuluna yazıldım. Görüş üçün vaxt təyin edildi. Sonra dedilər ki, Qorbaçov Krımda həbs olunub. Həmin gecə Fövqəladə Hallar üzrə Dövlət Komitəsinin (QKÇP) rəhbəri, SSRİ-nin vitse-prezidenti Gennadi Yanayevin başçılığı ilə avqust hadisələri başlamışdı. Sonra Yanayevlə görüşmək istədim, 3 gün gözləməyimi bildirdilər.

Dedilər ki, müdafiə nazirinə tapşırıq verilib. Sovet ordusu Qafandan başlayaraq erməni terrorçuları tərk-silah edəcək, hər şey öz qaydasına düşəcək. Sonra məni Lukyanovun köməkçisi Aleksandrov qəbul etdi, vəziyyəti danışdım. Mənə dedi ki, Nüvədi Ermənistanın ərazisidir, nəsə etmək mümkün deyil. Etirazımı bildirdim, məni həbs etmək istədilər. Beləliklə, heç nə alınmadı. Qayıtdım Bakıya.

Evlərindən qovulan Nüvədi camaatı Zəngilan rayonunun Vejnəli kəndinin yaxınlığında çadırlarda məskunlaşmışdı. Azərbaycanın müxtəlif ərazilərindən yardımlar gəlirdi, amma ölkə rəhbərliyi bu məsələyə laqeyd yanaşırdı. Ona görə vəziyyət çox ağırlaşanda Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə zəng etməli oldum. Ümummilli lider dərhal dəstək göstərilməsi barədə tapşırıq verdi, nüvədililərə Naxçıvandan yardımlar gəldi.

**– Qərbi Azərbaycana qayıdış ümumxalq hərəkatına çevrilib. Erməni millətçiləri ilə mübarizəmiz bu müstəviyə keçib.**

– Yaxşı bilirik ki, Azərbaycan Respublikası heç vaxt indiki qədər güclü olmayıb. Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi milli tariximizdə bənzəri olmayan bir hadisədir. İndi isə qarşımızda yeni bir vəzifə - Qərbi Azərbaycana qayıtmaq məsələsi dayanır. Bu gün o torpaqların 80 faizi boşdur. Evlərin daşlarını, qapı-pəncərələrini söküb aparmaqdan başqa heç nə edə bilməyiblər. Çünki orada yaşamaq istəmirlər, bilirlər ki, o kəndlər onların deyil.

Azərbaycan Prezidenti İlham Əliyev isə deyir: "Biz Qərbi azərbaycanlıları topsuz-tüfəngsiz geri qaytaracağıq". Bu, bizim üçün çox böyük xoşbəxtlikdir. Mən də bir Qərbi azərbaycanlı kimi deyirəm ki, biz Prezidentimizin qətiyyətinə inanırıq. Davamlı olaraq əl-ələ verib doğma yurda qayıtmaq məsələsini gündəmdə saxlamalıyıq. İnanırıq ki, biz mütləq oraya qayıdacağıq.

Qərbi Azərbaycana qayıdış uzaqda deyil. Bu baxımdan, gənclərimizin üzərinə böyük məsuliyyət düşür. Onlar kim olduqlarını bilməlidirlər, milli kimliklərini unutmamalıdırlar, tarixlərinə dərindən bələd olmalıdırlar. Biz nüvədillilər də deportasiyamızın ildönümlərini həmişə bu yaddaşı qorumaq niyyəti və yurd sevgisi andı kimi qeyd edirik.

**– Söhbət üçün sağ olun.**

***Hazırladı: Tahir AYDINOĞLU***
***XQ***

# Yaddan çıxmaz Nüvədi!

**Qərbi Azərbaycan İcması Gəncə nümayəndəliyi, Meğri rayon və Nüvədi kənd icması Gəncədə Zəngəzur mahalının Nüvədidən əhalinin deportasiya olunmasının 34-cü ildönümü ilə bağlı birgə anım mərasimi keçirib.**

Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Meğri rayon icmasının sədri, akademik Fikrət Əliyev vurğulayıb ki, 1906-cı ildə ermənilərin hücumuna məruz qalan nüvədililər 1909-cu ildə viran qalmış kəndə qayıdıb, onu bərpa edərək yenidən yaşamağa başlayıblar. Bu qırğın və talan 1918-ci ildə də təkrarlanıb. Kənd sakinlərinin sayı sonuncu deportasiyaya qədər neçə nəfər olub. Kənd camaatı 1991-ci ilə qədər öz dədə-baba yurdundan didərgin düşməmək üçün müqavimət göstərib. Evlərindən qovulan Nüvədi camaatı Zəngilanın Vejnəli kəndinin yaxınlığında çadırlarda məskunlaşıb. Məhz ulu öndər Heydər Əliyevin tapşırığı ilə nüvədililərə Naxçıvandan mütəmadi olaraq yardımlar göndərilib.



Çıxış edənlər belə mərasim və görüşlərin Qərbi Azərbaycanla bağlı tarixi yaddaşın gələcək nəsillərə ötürülməsi, mədəni irsin qorunması baxımından önəmli olduğunu qeyd ediblər. 12 yaşlı Fatimə Vəliyeva ata-babalarının doğma yurdu barədə duyğularını bölüşərək, o törpaqlara qayıdış inamını ifadə etməsi mərasim iştirakçıarını dərindən təsirləndirib. Nüvədililər öz əzəli yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışın uzaqda olmadığını əminliklə bildiriblər.

***XQ***

*Qərbi Azərbaycanın tamailə itirilməsi ilə nəticələnmiş 1988-ci ilin sonuncu deportasiyası xalqımıza qarşı düşmənçiliyi sonadək körüklənmiş erməni toplumunun kütləvi vəhşilikləri, misilsiz cinayətləri ilə gerçəkləşdirilmişdir. Əzəli torpağından ağlasığmaz hiylə və işgəncə ilə qovulmuş 250 minədək soydaşımızın hər biri bu zorakı qovulmada maddi və mənəvi itkiyə məruz qalmış, təhqir və zülmlə üzləşmişdir.*

*Qərbi Azərbaycana qayıdış missiyası çərçivəsində həmin vəhşilik və cinayətlərə hədəf olmuş soydaşlarımızdan daha birinin ağrılı xatirə və düşüncələrini oxucularımıza təqdim edirik.*

# Türkə nifrət erməniləri cəllada çevirmişdi

**Mən 1951-ci ildə Qərbi Azərbaycanın ermənilərin sonradan Ararat adlandırdıqları Vedibasar rayonunun Şidli kəndində anadan olmuşam. Uşaqlıq dövrüm olan ötən əsrin 60-cı illərinədək ermənilərlə azərbaycanlılar nisbətən dinc, dava-şavasız yaşamışdılar. Lakin sonrakı illərdə tədricən milli münasibətlər zəminində mübahisələr, incikliklər hətta davaya səbəb olan qarşıdurmalar artmağa başlamışdı.**

"Xalq qəzeti"ndə bundan əvvəl çap olunmuş "Azərbaycan sevgisi cinayət sayılırdı" başlıqlı qeydlərimin davamı olaraq bildirirəm ki, ümummmilli lider Heydər Əliyev 1987-ci ilin payızında sovet rəhbərliyindən istefaya göndəriləndən sonra ermənilərin bizə münasibəti kəskin surərdə pisləşdi. Bir neçə aydan sonra SSRİ-dəki erməni siyasi qruplaşması M.Qorbaçovun himayəsi ilə Dağlıq Qarabağ münaqişəsinə start verdilər.



Ermənilər, ilk növbədə, Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın son nəslini qovub-çıxarmaq üçün kütləvi hücumlara başladılar. Qarşısı alınmayan bu vəhşiliklərin nəticəsi olaraq biz azərbaycanlıları 1988-ci ilin payızında Ermənistandan tamamilə deportasiya etdilər. 1988-ci ilin fevralından dekabrınadək Qərbi Azərbaycanda bir nəfər də azərbaycanlı qalmadı.

Evindən qovulmuş, var-yoxu əlindən alınmış, işgəncələr verilmiş insanlar min illərdən bəri babalarından miras qalmış ərazilərdən qovularaq Azərbaycana pənah gətirdilər. Çərxi dönmüş Qərbi Azərbaycan düşmən xəyanətinin və sahibsizliyin güdazına getdi.

Həmin vaxt baş vermiş Sumqayıt hadisələri vəziyyəti daha da gərginləşib açıq düşmənçilik səviyyəsinə yüksəlmişdi. Ermənistandan qovulan azərbaycanlılarla Azərbaycandan köçən ermənilər əlacsız qalıb harda gəldi öz aralarında danışıq aparır, mənzillərini bir-biri ilə dəyişirdilər. Əsas danışıqlar da Bakıda aparılırdı. Artıq Bakı–İrəvan dəmir yolunda qatarlara hücum edildiyi üçün mən çox çətinliklə Bakıya gəldim. Bir erməni ilə evimizi dəyişmək barədə razılaşdıq.



Köçmək üçün bir neçə gün fasilədən sonra yenidən işə salınmış Bakı–İrəvan qatarına bilet aldım ki, Vediyə qayıtdım, yaşadığımız Xalisa kəndinə gedim. Qatar Naxçıvanın Noraşen (Şərur) stansiyasına çatanda bütün sərnişinlər düşdülər. Ermənistana gedən yeganə sərnişin mən idim. Qatar Vedinin Dəvəli stansiyasına çatanda isə mən də düşdüm ki, avtobusla kəndimizə çatım. Stansiya həmişə səsli-küylü, adamla dolu olan bir ərazi idi. Ancaq həmin gün heç kəsə rast gəlmədim.

Yola çıxıb nə qədər gözlədim avtobus gəlmədi. Məcbur olub bir taksi sürücüsünə yaxınlaşdım ki, məni Xalisa kəndinə aparsın. Bunu eşidən sürücü mənə hücum edərək ətrafdakılara yüksək səslə dedi ki, gəlin türk tutmuşam. Orada olan ermənilər məni əhatəyə alaraq sorğu-suala tutdular ki, belə bir vaxtda nə cəsarətlə bura gəlmisən. Mən onlara evimizi dəyişmək üçün sənədləri aparmaq üçün gəldiyimi desəm də, onlar məni buraxmadılar. Ələ salıb dedilər ki, daha sənə heç bir sənəd lazım gəlməyəcək.

Onlar məni maşına oturdaraq Ararat (Dəvəli) qəsəbəsinin mərkəzinə gətirdilər. Yenə başladılar asıb-kəsməyə. Bu hadisələr başlamamış mən kənddə kolxozun məntəqə müdiri işləyirdim. Tez-tez bura gəlirdim. Bu ermənilərin arasındakı Mişa adlı ermənini tanıdım və dedim ki, kimliyimi ondan soruşun. Mişa mənə çəp-çəp baxıb dedi ki, deyəsən, məni tanıyır. Bundan sonra da məndən əl çəkmədilər. Biri dedi ki, paltarını soyundurun ötürün getsin, bir başqası isə bildirdi ki, Sumqayıtın heyfini almaq lazımdır. Elə bu vaxt bir erməni hoppanıb sifətimə təpiklə vurdu. O dedi ki, nə bazar açmısınız, işini bitirin, qutarsın.

Bundan sonra üstümə tökülüşüb təpik-yumruqla o qədər vurdular ki, ayağa qalxa bilmədim. Axırda məni sürüyərək böyük bir tut ağacının altına gətirdilər. Bir erməniyə isə dedilər ki, get kəndir gətir bunu asaq. Daha bilmədim nə qədər vaxt keçdi. Bir də gördüm ki, bir erməni məni qaldırır. O dedi ki, qorxma səni kəndinizə aparacam. O məni sovet sədrinin otağına apardı. Ermənilər isə qışqırıb deyirdilər ki, Sumqayıtı yaddan çıxarmayın, verin bu türkü öldürək. Biz idarədən bayıra çıxanda orada olan ermənilər yenə dedilər ki, aparma qoy onu öldürək.

Həmin erməni oğlan məni birtəhər aradan çıxarıb maşına oturtdu. Elə ki, kəndin girəcəyinə çatdıq təəccüb məni bürüdü. Kənd yolunun hər iki tərəfinə, elə bil, insandan çəpər çəkilmişdi. Hər tərəfdə rus hərbçiləri, erməni polisləri, rayon rəhbərləri görünürdü. Əmr verirdilər ki, tez çıxın, geciksəniz pis olacaq. Deməli, kənd camaatını döyərək maşınlara mindirib kənddən çıxarırdılar.

Mən ailə üzvlərimi nə qədər axtarsam da tapa bilmədim. Qonşulardan biri dedi ki qaynatan ailənizi qonşu kənddə yaşayan qardaşıngilə aparıb. Məni dar ağacından qurtarıd bura gətirən erməni yenə rastıma çıxıb soruşdu ki, ailəni tapdınmı? Ona dedim ki, ailəm qonşu kəndədir. Şiddi kəndində ancaq azərbaycanlılar yaşayırdılar. Bu erməni, deyəsən, Şiddinin köçüb-qaldığını öyrənmək üçün məni bir hərbçinin müşayiəti ilə ora apardı. Yolüstü kənddəki evimizə düşdüm ki. sənədləri və palltarlarımı götürüm. Bakıdan gəlmiş erməni və qonşu ermənilər bizim evdə olan əşyaları öz aralarında bölüşdürürdülər. Qonşularım olmuş ermənilər mənə düşmən kimi baxırdılar.

Dayanmayıb Şiddi kəndinə gəldik. Qardaşımgildən anamı, yoldaşımı 3 körpə uşağımı götürərək Xalisa qayıtdıq. Kənddən zorla çıxarılan adamları doldurduqları maşın karvanında bizi Naxçıvanla sərhəddəki Arazdəyən kəndinə gətirdilər. Yol boyu yolun hər iki kənarına düzülən ermənilər bizim maşınları daşlayırdılar.

Sədərəkdə muxtar respublika rəhbərliyi bizi avtobuslara mindirib yataqxanalarda, evlərdə yerləşdirdilər. Sonradan bəzi adamlar ermənilərlə evlərini dəyişə bildilər. Bir çoxunun isə evi zəbt olunduğundan onlar bunu edə bilmədilər.

Azərbaycan o məhşərə bənzər günlərdə Qərbi Azərbaycandan qovulan 250 minədək azərbaycanlıya sahib çıxaraq onları respublikanın müxtəlif şəhər və kəndlərində yerləşdirdi. Mən isə Bakı şəhərində yerləşə bildim. Amma ötən 37 ildə bir gün də Vedini, Şiddini, Xalisanı unutmamışam. Qarabağda 30 illik Ermənistan işğalına son qoymuş Azərbaycan Prezifdenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəstəyi ilə ölkəmizdə uğurla davam etdirilən Qərbi Azərbaycana Qayıdış hərəkatı doğma yurda qayıtmaq ümidlərimizə çıraq tutub.

***Salman MÜRSƏLOV,***
***Qərbi Azərbaycan qaçqını***

*Tariximizin silinməz izləri*

# Yusif ibn Küseyir türbəsi – “Atababa günbəzi”

## *863 ilin yadigarının 1891-ci ilə aid illüstrasiyası*

**Bu türbə Naxçıvan–Marağa memarlıq məktəbinin və ümumilikdə Azərbaycan memarlığının ən gözəl nümunələrindən biridir. Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr Naxçıvani tərəfindən Naxçıvan şəhərinin cənub-şərq tərəfində 1162-ci ildə inşa edilən Yusif ibn Küseyir türbəsi (Yusif Küseyr oğlu türbəsi) el arasında “Atababa günbəzi” kimi də tanınır.**

Abidə yeraltı sərdabədən və yerüstü türbədən ibarətdir. Daxildən və xaricdən səkkizguşəli formada ucaldılan türbə piramida şəkilli günbəzlə örtülüb. Naxçıvanın türk-islam mədəniyyətinin ən dəyərli nümunələrindən sayılan Yusif Küseyr oğlu türbəsi Azərbaycanın qülləvari türbələri içərisində yeganə abidədir ki, üst piramida örtüyü günümüzə salamat vəziyyətdə gəlib çatıb.

Yusif ibn Küseyir türbəsi haqqında çox yazılıb, çox danışılıb. Lakin bu abidənin elmi və vizual ömründə xüsusi bir səhifə var ki, həm ictimaiyyət, həm də akademik mühit üçün uzun müddət qapalı qalıb. Bəs qaranlıq qalan məqam nədir və niyə ictimaiyyətə açılmasında maneələr olub?

Bu suala Naxçıvan Dövlət Universitetinin Ümumi hüquq kafedrasının müəllimi Yunis Xəlilov aydınlıq gətirir. Yunis müəllim XQ-yə açıqlamasında bildirdi ki, söhbət türbənin indiyə qədər məlum olan ən erkən vizual təsvirlərindən biri – 1891-ci ildə Tiflisdə erməni dilində nəşr olunan “Taraz” (“Տարազ”) jurnalında dərc edilmiş sinkoqravür illüstrasiyasından gedir. Bu təsvir təkcə Azərbaycan memarlıq tarixi baxımından deyil, XIX əsrin sonlarında Qafqazın mədəni mənzərəsini öyrənmək üçün də qiymətli vizual mənbədir: “Taraz” jurnalı 1890-cı ildən Tiflisdə Tiqran Nazaryanın redaktorluğu ilə nəşr olunub. Bədii-ədəbi və publisistik xarakter daşıyan illüstrasiyalı jurnal Qafqazın şəhərləri, abidələri və etnoqrafiyasına dair nadir vizual materiallar dərc edib. 1891-ci il 24 fevral tarixli (II il, №8) sayında jurnal “Köhnə Naxçıvan yaxınlığında ərəb məzarı” (“Արաբական գերեզման Հին Նախիջեւան մօտ”) başlığı ilə Yusif ibn Küseyir türbəsinin qara-ağ təsvirini oxuculara təqdim edib.

Təəssüf ki, həmin dövrdə jurnalın bir çox nömrələrində Azərbaycan şəhərləri və abidələri haqqında vizual materiallar təqdim edilsə də, onlar tez-tez “ərəb” və ya “fars” abidələri kimi yad ünsürlər qismində təqdim olunurdu. XIX əsrin sonlarında Qafqazda nəşr olunan erməni və rusdilli mətbuatda islam memarlığına belə təhrifedici yanaşma geniş yayılmışdı.

Bu baxımdan, Yusif ibn Küseyir türbəsinin “ərəb məzarı” kimi təqdim edilməsi yanlışdır. Birmənalı şəkildə məlumdur ki, bu türbə XII əsrdə Naxçıvanda fəaliyyət göstərmiş görkəmli memar Əcəmi Naxçıvaninin memarlıq məktəbinə aiddir. Onun həm memarlıq üslubu, həm də kufi xətti ilə yazılmış epiqrafik kitabələri bu abidənin yerli Azərbaycan şəhər-mədəni mühitinin məhsulu olduğunu təsdiqləyir. Eləcə də, Yusif ibn Küseyir ərəb yox, Naxçıvanda yaşamış müsəlman azərbaycanlı şəxsiyyətlərdən biri olub. Bu isə mübahisə doğurmayan elmi faktdır”.

Y.Xəlilov onu da vurğuladı ki, bu cür təqdimat abidəni öz milli-tarixi kontekstindən ayırır, yanlış etnik-mədəni identifikasiya yaradır və tarixi yaddaşımıza zərər vurur: “Gəlin abidənin həmin illüstrasiyasına nəzər salaq. O dövrdə fotoqrafik texnologiyaların geniş yayılmadığını nəzərə alsaq, bu təsvir fotoəsaslı qravür texnikasında hazırlanmış vizual sənəd hesab oluna bilər. Türbənin səkkizbucaqlı gövdəsi, kərpic üzlüyü və kufi yazı zolağı qara-ağ illüstrasiyada kifayət qədər dəqiq təsvir olunub. Bu nadir təsvir uzun müddət yalnız Ermənistan Milli Kitabxanasının arxiv fondlarında qorunaraq ictimaiyyət və Azərbaycan tədqiqatçıları üçün əlçatmaz olub. Yalnız 2022-ci ildə “Taraz” jurnalının bu buraxılışı rəqəmsallaşdırılıb elektron fonda daxil edildikdən sonra görüntü “Wikimedia Commons” platformasında yayımlandı. Bu isə onu elmi dövriyyəyə daxil etmək üçün mühüm imkan yaratdı”.



Naxçıvan Dövlət Universitetinin müəllimi təəssüf hissi ilə bildirdi ki, bu görüntü indiyə qədər nə Azərbaycan memarlıq ədəbiyyatında geniş şəkildə yer alıb, nə də türbənin “ərəb məzarı” kimi təqdim olunması cəhdi tənqidə məruz qalıb: “Hətta illüstrasiyanın özünün elmi tədqiqata cəlb olunmaması da diqqətdən yayınmamalıdır. Azərbaycan elmi mühitində bu görüntü haqqında ilk qeydə 1980-ci illərdə Kövsər Tarverdiyevanın “Azərbaycan mədəniyyəti erməni dövri mətbuatında (1850–1920)” adlı araşdırmasında rast gəlirik. Tədqiqatçı həmin jurnalda Azərbaycan memarlığına dair illüstrasiyaların mövcudluğunu qeyd etsə də, nə həmin şəkli dərc edib, nə də onu ayrıca vizual mənbə kimi təhlil edib. Bu isə çox güman ki, o dövrdə arxiv materiallarına çıxışın və çap imkanlarının məhdudluğu ilə bağlı olub.

Bəs bu illüstrasiya niyə bu gün də “gözəgörünməz” qalır? Səbəblər bir neçədir: birincisi, “Taraz” jurnalının erməni dilində olması və bu sahə üzrə azərbaycanlı tədqiqatçıların azlığıdır. İkincisi, görüntünün gravür texnikasında hazırlanması, onun fotoqrafik dəqiqlikdə olmaması və bəzi detalların aydın görünməməsidir. Üçüncüsü, Azərbaycan memarlıq ədəbiyyatında inert (passiv) elmi ənənənin mövcudluğudur – bu illüstrasiyaya klassik ədəbiyyatda yer verilməyib, yeni nəşrlər də bu boşluğu doldurmayıb. Bu təsvir yalnız memarlıq tarixçiləri üçün deyil, vizual mədəniyyət və media tarixini araşdıranlar üçün də əvəzsiz qaynaqdır. Həm abidənin erkən vizual təqdimatı baxımından, həm də XIX əsr mətbuatının abidələrə yanaşması kontekstində olduqca vacibdir”.

Sonda onu da qeyd edək ki, bu görüntü artıq rəqəmsal formada açıq şəkildə əldə edilə bilər və Azərbaycan memarlıq ədəbiyyatında, xüsusilə Yusif ibn Küseyir türbəsinə dair araşdırmalarda öz layiqli yerini tutmalıdır.

Gələcəkdə “Taraz” kimi nəşrlərdə yer alan bütün Azərbaycan abidələrinə aid illüstrasiyalar sistemli şəkildə toplanmalı, transliterasiya olunmalı və elmi dövriyyəyə daxil edilməlidir. Bu, həm tarixi ədalətin bərpası, həm də milli yaddaşımızın vizual arxivinin yenidən qurulması baxımından böyük ictimai və elmi əhəmiyyət daşıyır.

***Azər MUSTAFAYEV***

---

*Milli kimlik qaynaqlarımız*

# Türkmən bəyliklərində törə və ənənələr

**(əvvəli ötən sayımızda)**

Beləliklə, quruluş dövründə Anadolu bəyliklərinin, istisnasız olaraq heç birinin əşirət mənşəyindən uzaqlaşmadığı, köçəri ideologiyasına bağlılığı bu və ya digər şəkildə saxladığı aydındır. Hakimiyyət anlayışları, siyasi, iqtisadi, ictimai və mədəni inkişaf qanunauyğunluqları da homogenlik kəsb edir.

Bəyliklərdə dövlət hüququ və qanunçuluğun ana qaynağı Hunlar, Göytürklər, Qaraxanilər, Səlcuqilər, Qəznəvilər, Xarəzmşahlar və Hülakularda olduğu kimi, türkçülük-oğuzçuluq hərəkatının nüvəsini təşkil edən törədir (monqol təsirinə daha çox məruz qalmış ərazilərdə “yasa” da adlandırılır). Törə, bir qayda olaraq, Oğuz xanla (yasa isə Çingiz xanla) əlaqələndirilir və cəmiyyətin institusional əsası rolunu oynayır.

Törəyə görə, sosial-siyasi piramidanın başında “ulu(q) bəy” (bu termin rəsmi vəsiqə və sikkələrdə işlənən ərəbmənşəli “əmiri-əzəm”, “sultanül-əzəm” ibarələri analamındadır) durur. Bəyliyin qurucusu bəzən o, əksər hallarda isə onun cəddidir. Hər bir halda ulu bəy bəyliyə adını vermiş sülalənin (xanədanın) nümayəndəsidir. O, dövlətin mütləq hakimi deyil, “bəylərin ulusu”dur. Məclisə (toy, qurultay; məsələn, Ağqoyunlularda Bayandır Şurası) hesabat verir və bəylər qarşısında müəyyən öhdəliklər daşıyır. Başqa sözlə, ulu bəyin hakimiyyəti digər bəylərin yarımsuveren hüquqları ilə məhdudlaşdırılır. Dövlətin və ulusun başına keçəcək şəxsin (hökmdarın/ulu bəyin) seçilməsində xanədan (ailə) mənsubları və əşirət rəislərinin həlledici söz sahibi olduqları mənbələrdə təsbit edilir.

Məlum olduğu kimi, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində Böyük Divanla yanaşı, Kəngəş (“gənəşmək” sözündəndir) və ya Məşvərət Divanı da fəaliyyət göstərib və bu qurumda hökmdarın qardaşları, oğlanları, xanımları ilə birgə tayfa və ordu başçıları da təmsil olunub. Burada müharibə, sülh, taxta varislik kimi mühüm dövlət məsələləri ilə bağlı məşvərət aparılır, iştirakçıların hər birinin fikri öyrənilir və nəzərə alınırdı. Analoji kollegial qurumlar digər türkmən bəyliklərində də mövcud idi. Ulu bəyin (sonradan sultanın) məşvərət əsasında, yaxud nüfuzlu tayfa başçılarının iradəsi ilə seçildiyi hallar da bəllidir.

Ərtoğrul bəy öləndə (1281) qardaşı Dündarın cidd-cəhdlərinə baxmayaraq, obanın nüfuzlu şəxsləri onu deyil, Osman bəyi dəstəklədilər. Ağqoyunlu Qara Yülük Osman şahzadəlik dövründə böyük qardaşı Əhmədin ordu başçısı olmuş, sonradan ona asilik etmiş, “bahadırlığına”, döyüşlərdə göstərdiyi şücaətlərə, qazandığı qələbələrə görə Qazi Bürhanəddinin də dəstəyi ilə konfederasiya əşirətləri tərəfindən “ulu bəy” və baş komandan seçilmişdi.

...Qaraqoyunlu Cahanşahın öldürülməsindən sonra Baharlı tayfasından olan əmirlər şahzadə Əbu Yusif Mirzəni taxta çıxarmışdılar.

1478-ci ildə Uzun Həsən öldü və onun yerinə oğlu Xəlil gəldi. Xəlil hələ sultan elan edilməmiş qardaşları Uğurlu Məhəmməd və Maqsudu zərərsizləşdirə bilmişdi. Amma taxta keçən kimi həm əmisi Cahangirin oğullarının (ələlxüsus Muradın), həm də öz qardaşının (İbrahimin) müqaviməti ilə qarşılaşmışdı. Əlbəttə ki, hakimiyyət daxilində və nüfuzlu tayfalar arasında həm Muradı, həm də İbrahimi dəstəkləyən qüvvələr vardı. Onlar Sultan Xəlilin atası Uzun Həsənin mərkəzləşdirmə xəttini davam etdirəcəyindən ehtiyatlanmış, taxt namizədlərini təsir altına salmaqla status-kvonu qorumağa çalışmışdılar.



Sultan Xəlil açıq döyüşdə Murada qalib gəlib onu edam etdirdi, İbrahimi həbsə atdırmışdı. Daha ayıq olan Yaqub bəy isə saray oyunlarından kənar qalmaq üçün qardaşı Sultan Xəlildən Diyarbəkirin idarəçilyini alıb Təbrizi tərk etmişdi. Amma narazı əmirlər, din adamları tədricən onun ətrafında toplaşmağa başlamışdılar və Yaqubu Sultan Xəlilin üzərinə qaldırmışdılar. Onlar dövlətin Bayandur oğullarının ortaq mülkü olması düşüncəsi ilə hərəkət etmişdilər.

Vəziyyətin əleyhinə çevrildiyini anlayan Sultan Xəlil Yaqub bəyin üstünə hücum çəkmişdi, lakin Xoy döyüşündə ona məğlub olub, qətl edilmişdi. Sultan Yaqub taxta oturduqdan sonra ölkənin birliyini qorumaq niyyəti ilə qardaşının tərəfdarlarını əfv etmişdi. Lakin onlar bu dəfə də Sultan Xəlilin oğulları Əli və Əlvəndin ətrafında yığılmağa başlamışdılar. Doğrudur, istəklərinə çatmamışdılar, amma Uzun Həsəndən sonra müxtəlif tərkiblərdə qruplaşaraq taxt namizədlərini hakimiyyət çəkişmələrinə sövq edən narazı qüvvələr son nəticədə Ağqoyunlu dövlətinin süqutuna səbəb olmuşdular. (Burada və aşağıda misal gətirilən faktların sayını artırmaq da olar.)

Türkmən bəyliklərində dövlət-hakimiyyət anlayışının, o cümlədən vərəsəlik hüququnun kökləri isə “ülüş” ənənəsinə gedib çıxır. “Ülüş (-mək)” sözü “bölüşmək, paylaşmaq” mənasında işlənib, hakimiyyətdən pay bölgüsünün olduqca geniş spektrini ehtiva edir. Bəyliklərdə döyüş qənimətlərinin bərabər və ədalətli bölgüsü hərbi əməliyyatların pozulmaz qanunu, fəth olunan torpaqların paylanması hərbi-torpaq sisteminin başlıca motivasiya formasıdır.

Əldə olunan qənimətlərin paylaşılması üsulunu boylarla əşirət dövləti arasında spesifik qarşılıqlı mübadilə sazişi hesab edən Y.Başkanın fikrincə, “boy və dövlətlərin qarşılıqlı mübadiləyə əsaslanan birgəyaşayışı” əksər hallarda “labüd bir böhranla” nəticələnir ki, bunun da səbəbi “dövlətin mübadilə üzərində nəzarəti monopoliyaya götürmək və köçəriləri özündən asılı vəziyyətə salmaq istəməsi, qarşı tərəfin isə buna yağma və talanlar yolu ilə müqavimət göstərməsi”dir.

Başqa səbəblər də istisna deyil. Amma aydındır ki, böhran dərinləşdikcə ziddiyyətlər antoqonizmə çevrilir və bu zaman köçərilər öz tələblərini təmin etmək üçün ən yaxşı bildikləri yola – üsyan və qiyama əl atırlar. Odur ki yalnız “yaranmış dialektik əksliklərı çözə bilən sivilizasiyalar sağlam və uzunömürlü olur, bunu bacarmayanlar isə tez bir zamanda sıradan çıxır”.

Başqa sözlə, “ülüş” ənənəsi əşirət dövlətlərini, o cümlədən də türkmən bəyliklərini tərkiblərindəki boylarla münasibətləri davamlı şəkildə tənzimləməyə, daxili harmoniyanın təminatı üçün yeni-yeni qarşılıqlı mübadilə formaları tapmağa vadar edir. Yalnız Osmanlı kimi qəza dövlətləri bu sazişi uzun müddət yerinə yetirə bilir, qarşılıqlı razılaşmaların pozulduğu bəyliklərdə isə daimi resurs defisiti və qarmaqarışıqlıq hökm sürür.

Ümumiyyətlə, “ülüş” ənənəsini türkmən bəyliklərində dövlət həyatının həlledici amili, inzibati idarəçiliyin bel sümüyü hesab etmək yanlış olmaz. Çünki bu ictimai quruluşda dövlət hakimiyyətinin özü də bölüşdürülür, pay edilir. Törəyə görə, bəyliklərdə (Mətin Kuntun fikrincə, əslində, oğuz-türkmən törəsinə tapınan bütün toplumlarda) hakimiyyət ulu bəyin müstəsna hüququ deyil, hakim xanədanın “ortaq mülkü” sayılırdı.

Qədim inanclara görə, “kut” (ilahi, müqəddəs hakimiyyət hüququ) şəxsə yox, ailəyə, sülaləyə verilirdi və törə də həmin sülalənin kişi cinsinə mənsub bütün üzvlərinin ölkə üzərində sahiblik hüququnu tanıyır və qoruyurdu. Bu hüquq öz əksini onda tapırdı ki, ulu bəy ölkəni xanədan üzvləri arasında bölüşdürür, hakim olduqları yerlərdə onların suverenliyinə təminat verirdi. Şahzadələr – hətta kiçik yaşda olsalar belə – bir lələnin himayəsində sancaq bəyliyinə, yaxud onlara iqta edilmiş məntəqələrin valiliyinə göndərilir, idarəçilikdə iştirak etməklə həm də gələcəyin hökmdarı kimi yetişirdilər.

Ulu bəy paytaxtda, mərkəzdə hökm sürür, qardaşları, oğulları, bəzən onun səlahiyyət verdiyi bəylər isə əyalətlərdə hökumət işlərini idarə edirdilər (Rəfiq Turan). Müstəqil siyasət yürüdür, hətta bəzi hallarda öz adlarına sikkə də kəsdirə bilirdilər. Münasibətlər nisbilik üzərində qurulurdu: ulu bəy əyalət hakimlərinin nisbi müstəqilliyini, onlar da onun nisbi üstünlüyünü qəbul edirdilər. Şahzadələr üsyan və ya müxalifət etmədikcə vəzifələrindən kənarlaşdırılmır və ulu bəyin güclü olduğu müddətdə sistem normal işləyirdi. Müəyyən fikir ayrılıqları baş versə belə, məşvərət yolu ilə aradan qaldırılır, hərbi toqquşamaların qarşısı alınırdı.

Qara Yülük Osmanın oğlulları arasında sürən iqtidar münaqişələrinin aradan qaldırılması üçün Harputda Bayandur Şurası toplanmış, daxili müharibə və toqquşmalara son qoymaq qərarı verilmişdi (lakin bu qərar yerinə yetirilmədi). Yəni, söhbət dövlətin taleyindən gedəndə müəyyən cilovlayıcı alətlər işə salınırdı. Bununla belə atalar, oğullar, qardaşlar arasında, əmilər və qardaş oğlanları arasında, əmioğlanları arasında ixtilaflar da, qiyam və üsyanlar da, müharibələr də tez-tez baş verir və dövlətləri gücdən salırdı. Asi şahzadələr üsyankarlığına törə ilə haqq qazandırır, özlərinə havadarlar tapır, taxt qovğaları cəmiyyətdə anlayışla qarşılanırdı.

Ulu bəyin ölümü isə əsl fəlakət idi. Az qala, bütün hakimiyyət dəyişiklikləri zamanı vərəsəlik üstündə qanlı mübarizələr baş verirdi. Çünki hakim xanədanın nümayəndələri anadan qan qohumu olmaqla bərabər, həm də rəqib kimi doğulurdular. Törə onların hər birinin taxt iddiasını haqlı bilirdi. Yeganə meyar güc, öz üstünlüyünü təlqinetmə, əşirət və qoşun başçılarını öz tərəfinə çəkə bilmə bacarığı sayılırdı. Ölkənin müxtəlif bölgələrini idarə edən xanədan üzvləri özlərini göstərməli, daha ağıllı, cəsur, adil və səxavətli olduqlarını əhaliyə, xüsusən də onun hakim zümrəsinə qəbul etdirməli idilər. Ailənin hansı üzvünün bəyliyə daha layiqli olması yalnız bu yolla müəyyənləşdirilirdi.

Həlledici rolu hərbi güc, orduda və tayfalar arasında tərəfdar toplama amili oynayırdı. M.Kunt yazır: “Əksəriyyətin fikrincə, çöl dövlətlərində xaqan öldükdən sonra mirasçılardan ən layiqlisinin məhz daxili hesablaşmalar nəticəsində müəyyən olunması nəzərdə tutulurdu və bu hakimiyyət anlayışı Anadolu bəyliklərində (müəllif bir qədər aşağıda bu qaydanın Mərkəzi Asiyanın türk törəsinə əsaslanan bütün dövlətlərində gözlənildiyini yazır-N.M.) siyasi parçalanmaların əsas səbəbi idi”.

Başqa sözlə, törə mirasçılar arasında taxt qovğalarını nəinki inkar/rədd etmir, əksinə buna müəyyən nisbətdə rəvac verirdi. Hakimiyyət məsələsinin güc yolu ilə həll olunması qaydası türkmən mühitində elə dərin bir kök salmışdı ki, Mərkəzi Asiyanın çöl imperiyaları ənənələrindən uzaqlaşdıqdan, klassik imperiya idarəçiliyi üsuluna keçdikdən sonra da Osmanlı elitası səltənətin bəy ailəsinə hamılıqla məxsus olması, taxta keçmənin rəqabət yolu ilə müəyyənləşməsi düşüncəsini uzun müddət legitim bir əsas kimi kollektiv yaddaşdan silə bilməmişdi.

Varislik məsələsi ilə bağlı səltənətin atadan oğula keçməsindən başqa sabit bir qayda-qanun olmadığı üçün padşah öz xələfini təyin etmədən öləndə (hətta bəzən təyin edib öləndə belə!) oğullar arasında başlanan qanlı savaşlar təbii qarşılanmış, taxt savaşlarında iştirak hüququ olan sosial zümrələr (ordu hissələri, əşirət və tayfalar) bu və ya digər şahzadənin səfində yer almış, dövlətin taleyini təhlükəyə atdıqlarının fərqinə belə varmamışlar.

**(ardı var)**

***Nizaməddin MUSTAFA***

# Xalq yazıçısı Elçin Əfəndiyevin əziz xatirəsinə

## *Böyük qələm sahibinə vida*

**Avqustun 3-də Elçin Əfəndiyevin dünyasını dəyişməsi xəbəri sürətlə yayılmaqda idi. Xalq yazıçısı, hörmətli Çingiz Abdullayevin də paylaşımını gördüm. İnanmaq istəmədim, inanmadım. Dərhal Çingiz müəllimə zəng etdim. Telefonda titrəyən, üzüntülü səslə: "Elçin müəllimi itirdik..." dedi.**

Azərbaycan ədəbiyyatında və dövlətçilik tarixində özünəməxsus imzası olan böyük şəxsiyyət Elçin Əfəndiyev təkcə görkəmli yazıçı, dramaturq və publisist deyil, eyni zamanda, çətin dönəmlərdə ziyalı məsuliyyətini daşıyan, ictimai-siyasi proseslərdə fəal iştirak edən bir fikir adamı idi. Elçin müəllimin zəngin yaradıcılığında romanlar, povestlər, pyeslər və elmi-tədqidat əsərləri xüsusi yer tutur. "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü", "Bayraqdar", "Baş" və digər qiymətli əsərləri təkcə bədii məziyyətlərinə görə deyil, həm də milli kimliyimizi və tarixi yaddaşımızı əks etdirməsi baxımından Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olub. Elçin Əfəndiyev klassik ədəbi düşüncə ilə



müasir realizmi və insan psixologiyasının dərin qatlarını birləşdirə bilən nadir qələm sahiblərindən idi.

Ədəbiyyat adamı kimi yetişməsində isə şübhəsiz ki, böyük yazıçı İlyas Əfəndiyevin oğlu olması təsirsiz qalmamışdı. 70-ci illərdə İlyas Əfəndiyevin əsərlərini böyük maraqla oxuyardım. Həmin vaxt onun Elçin və Timuçin adlı iki oğlundan bəhs etməsini xatırlayardım. Tale elə gətirdi ki, onların hər ikisi ilə dost olduq. Elçin müəllimlə 1980-ci illərin əvvəllərində Azərbaycan Yazıçılar İttifaqında tanış ol-



muşduq. Gənc yaşına baxmayaraq, artıq həm Yazıçılar İttifaqının katibi, həm də nüfuzlu yazıçı kimi ədəbi cameədə öz yerini çoxdan tutmuşdu.

1982–1987-ci illərdə Moskvada, M.Qorki adına Ədəbiyyat İnstitutunda oxuduğum illərdə onunla tez-tez görüşərdik. Məni maraqla dinləyər, müzakirələr aparar, təcrübələrini bölüşər, tövsiyələrini verərdi. İnstitutu bitirərkən diplom işimə yazdığı resenziya mənim üçün həm böyük şərəf, həm də gələcək fəaliyyətim üçün dəyərli bir dəstək olmuşdu. İnstitutu bitirdikdən bir neçə ay sonra Azərbaycan Yazıçılar İttifaqının "Ədəbiyyat və incəsənət" qəzetində işə başladım. Elçin müəllim isə həmin dövrdə soydaşlarla əlaqələrin qurulması və diaspor siyasətinin ilkin mərhələlərində böyük əhəmiyyət kəsb edən "Vətən" cəmiyyətinə rəhbərlik edirdi. Filarmoniyanın qarşısında yerləşən bu ideoloji mərkəz ziyalıların toplaşdığı, fikir mübadiləsi apardığı önəmli bir məkan idi. "Odlar yurdu" qəzeti ilə birgə o dövrdə ədəbi fikrin və ruhun isti nəfəsini bu məkanda duymaq mümkün idi.

1990-cı ilin Qanlı Yanvar faciəsindən sonra Azərbaycan xalqı ağrılı-acılı günlərini yaşayırdı. Həmin vaxt Elmlər Akademiyasının əsas binasında keçirilən iclasda Azərbaycan yazıçılarının kommunist partiyasına üzvlük biletlərindən imtina çağırışını ilk edənlərdən biri də məhz Elçin müəllim oldu. Mən həmin vaxt Azərbaycan Yazıcılar İttifaqında ilk partiya təşkilatının katibi Nadir Cabbarovun müavini kimi etiraz tədbirinin əsas təşkilatçılarından biri idim. 20 yanvar hadisələrindən sonra ölkədə komendant saatı tətbiq olunmasına, küçələrdə hərbçilərin, tankların hərəkətinə baxmayaraq, biz çağırış edərək Azərbaycan yazıçılarını bir-bir iclasa çağırırdıq. Birgə keçirdiyimiz tədbirdə Sov.İKP sisteminə etiraz edərək, partiya biletlərindən imtina etdik. Belə bir vaxtda Azərbaycan yazıçılarının bir araya gələrək etiraz etməsi çox böyük tarixi hadisə idi.

Həmin ilin payızında Elçin müəllim Baş nazir Həsən Həsənovun tövsiyəsi ilə Sumqayıtdan Ali Sovetə deputatlığa namizədliyini irəli sürdü. Seçki komandasında mən də var idim. Əkrəm Qaflanoğlu, Əşrəf Veysəlli, Ofeliya Babayeva, Abid Tahirli kimi tanınmış ziyalılarla ev-ev gəzib təbliğat aparırdıq. Uğurlu seçki kampaniyası aparmağımıza baxmayaraq, təəssüf ki, o illərdə səlahiyyət sahiblərinin ikili oyunları, sistemin zəifliyi, saxtakarlıqlar səbəbilə bu seçkidə də uduzan xalq oldu. Ziyalıların, söz adamlarının, düşünən beyinlərin məğlubiyyəti Azərbaycanın gələcəyinə də təsir etdi. Biz meydanları yox, tribunaları yox, parlamenti itirdik. Və nəticədə, torpaqlarımızın 20 faizi işğal altına düşdü...

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ümidlər yenidən doğuldu. Elçin müəllim də bu mərhələdə dövlət quruculuğuna dəvət olunan və güvənilən şəxslərdən biri idi. Milli Məclis sədri statusunda Prezident səlahiyyətlərini həyata keçirən Heydər Əliyev onu Baş nazirin müavini vəzifəsinə təyin etdi. Bu barədə ilk danışdığı adamlardan biri də mən olmuşdum. Təyinatı parlamentdə təsdiqlənəndə mən də onun yanında idim.

Yüksək hökumət məmuru statusu Elçin müəllimin ziyalı simasını heç vaxt kölgələmirdi. Onun qapısı hər zaman açıq idi. 1992-ci ildən qurucusu olduğum Beynəlxalq Avrasiya Mətbuat Fondunun fəaliyyətini yaxından izləyir, daim dəstək verirdi. O, əməldə həmrəylik göstərməyi bacaran insan idi.

Sonuncu dəfə may ayında danışmışdıq. Doğum gününü təbrik etdim, xeyli söhbətləşdik. Görüşmək istədiyimi dedim. "Görüşək, çox istəyirəm ki, Füzuliyə səfər edək. Sən yaz, yazmağı unutma, Umud!" – dedi yenə də. Həmişə deyirdi o sözü...

Vida mərasimi Gənc Tamaşaçılar Teatrında keçirilirdi. Dövlət nümayəndələri, ictimai-siyasi xadimlər, sıravi vətəndaşlar axın-axın gəlirdilər. Şübhəsiz, bu izdiham Elçin Əfəndiyevin yaxın keçmişdə hökumət başçısının müavini olması ilə bağlı deyildi, məhz yazıçı Elçinə olan sevgi-saygı idi. Onun sözünə, düşüncəsinə, ədəbiyyatına, şəxsiyyətinə dəyər verən yüzlərlə insan öz ehtiramını göstərməyə gəlmişdi. Vida mərasimi keçirilən tamaşa salonunun hər tərəfi gül çələnglərinə, əklillərə qərq edilmişdi. Baş tərəfdə Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın adından olan əklilləri görürdük.

Onun son mənzili Birinci Fəxri xiyabanda uyuyan atasının – İlyas Əfəndiyevin yanında oldu. Dəfn zamanı yaxınları, ailə üzvləri ilə birlikdə mən də onun tabutuna çiyin verdim. Son mənzilədək izdiham uzanırdı. Məzardan aralandıqca bir daha Elçin müəllimin və onun böyüklüyünün fərqinə varırdım...

Ədəbiyyatımızın, dövlətçiliyimizin, ziyalılıq məfhumunun unudulmaz simasına – Elçin Əfəndiyevə Allahdan rəhmət diləyirəm. Ruhunuz şad olsun, dəyərli Elçin müəllim!

***Umud RƏHİMOĞLU,***
***Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri***

*Turizm mövsümü*

# "Möcüzə kimidir, nağıl misallı..."

**Yay turizminin qızğın çağında ölkəmizin Cənub bölgəsinə istirahətə yollananların sayı xeyli artıb. Günlərini təbiətin qoynunda – Lənkəran, Astara, Masallı, Lerik və Yardımlının dilbər guşələrində keçirənlərin gözü-könlü sevinir, ömrünə ömür calanır. Xarici turistlər, səyahət həvəskarları da Talış dağlarına çıxmaq fürsətini əldən vermirlər.**





Azərbaycan dövlət müstəqilliyi qazanandan sonra ölkəmizin bir çox guşələri kimi, Cənub bölgəsi də əsl turist məkanına çevrilib. Həm dövlət, həm də özəl şirkətlər, iş adamları, sahibkarlar tərəfindən yeni otellər, ailəvi istirahət məkanları yaradılıb. Meşələrdə, dağ ətəklərində, çay vadilərində abadlıq işləri görülüb, otellər tikilib. Ulu öndər Heydər Əliyev 27 iyul 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzaladıqdan sonra bütün bu yerlərin kütləvi turizm məkanlarına çevrilməsi dinamik bir prosesə çevrilib. Prezident İlham Əliyevin 2022-ci il 18 fevral tarixində zamanın çağırışlarına uyğun olaraq imzaladığı daha təkmil Qanun sayəsində sahəyə diqqət daha da güclənib.

Bu gün Lənkəranın Springs Wellness Resort – İstisu və Sağlamlıq Mərkəzi, Hirkan Parkı, Astaranın "Maricel"i, uzunömürlülər diyarı Lerikin "Relaks"ı və "Təbəssüm"ü, dağların zümrüd qaşı olan Yardımlının "Təkdam" şəlaləsi, Qız qalası, "Masallının Viləşətrafı istirahət mərkəzləri qonaqlara "gəl-gəl" deyir. "Premium", "Elit", idman turizmin əlavə bir komponenti sayılan əyləncə və oyun tipli düşərgələr bölgəyə xarici qonaqların da axınını artırıb. Dinamika bu il daha da yüksəlib. Türkiyə, Rusiya, Hindistan, Avropa və ərəb ölkələri, MDB, o cümlədən Orta Asiya respublikaları, Çin və Koreyadan olan müsafirlərin sayı daha çoxdur. Buna bir səbəb də Azərbaycanın turizm imkanlarının xarici sərgilərdə tanıdılmasıdır.

**Cənub bölgəsində müşahidəçisi olduğumuz vəziyyət də bunu təsdiqləyir. Turist bazalarının Lənkərana, Masallıya, Lerikə təbiət qoynuna təşkil etdikləri 1, 2 və 3 günlük turlar da bu baxımdan qonaqların rahatlığı üçün əvəzsiz imkanlar yaradır. Həmin fürsətdən yararlananlardan biri – əslən Laçın rayonundan olan Əvəz Nuriyevin dedikləri:**

– Ötən həftə növbəti dəfə ata yurdum Laçına dincəlməyə getmişdim. Qayıdandan sonra dostların təklifi ilə adımızı Masallı və Yardımlı turuna saldırdıq. Turun proqramı da maraqlı idi. Bələdçilər hər vasitə ilə çalışırdılar ki, günümüz, saatlarımız maraqlı keçsin. Həm gəzib dincəldik, həm də idman yarışlarında gücümüzü sınadıq. Buralar, xüsusən də Yardımlının axar-baxarlı guşələri mənə öz Laçınımı xatırladırdı. Allar kəndi tərəflərdə açıq havada Güney Azərbaycanın yaxın guşələri, o cümlədən də qədim Savalan dağı görünürdü. "Nisəqala yürüşü" də maraqlı idi. Bir sözlə, təəssüratım çox zəngindir.



**Həkim-terapevt Firdovsi Abbasov Xəzərsahili zonada – Lənkəran və Astarada olduqlarını bildirdi:**

– Doğrudan da, ürəyimiz istəyəntək dincəlib, günəş vannası qəbul edə, "D" vitamini yığa bildik. Burada dənizin suyu daha təmizdir. Otellərdə, kənar iaşə obyektlərində xidmət mədəniyyətinin yüksəldiyini də qeyd edə bilərəm. Qiymətlər də münasibdir.

**Bu isə Cənubun digər bir qonağı – özbəkistanlı Baxrom Durdıyevin ürək sözləridir:**

– Təbiətin gözəlliyi bir yana, mən burada Azərbaycan kulinariyasının da heyranı oldum. Ləvəngi, "Üç bacı" dolması, kabablar, şirniyyat çox xoşuma gəldi. Aşpazlar sanki incəsənət xadimləridir. Gözəl fantaziyaları var. Xidmət personalının şirin dili, həssas, qayğıkeş münasibəti ürəkaçandır. Afərin!

**Təqaüddə olan jurnalist həmkarımız Fərman Qaradağlı da Cənubda istirahət edənlərdən olub.**

– Əvvəllər Cənub zonasına bir neçə dəfə işimlə əlaqədar ezamiyyətə gəlmişdim. Bu dəfə isə səyyah kimi Masallı–Yardımlı dolaylarını doyunca gəzdim. Magistral yolun 25-ci kilometrində 50 metr hündürlükdən tökülən "Təkdam" şəlaləsi daha cəlbedicidir. Hər gün buraya gələn yüzlərlə turist ətrafdakı əsrarəngiz gözəlliyin seyrinə dalır, kotteclərdə istirahət edir. Yardımlı şəhərinə çatmamış "Deman" ailəvi istirahət mərkəzində qalmaq bir ayrı aləmdir. Burada turizm obyektlərinin sayını artırmaq da olar, çünki potensial imkanlar yetərli qədərdir.

Müsahiblərimizin təəssüratlarından da göründüyü kimi, yay istirahət mövsümünü Cənub bölgəsində keçirənlər öz seçimlərində qətiyyən yanılmayıblar. Buralar təkrarolunmaz gözəlliklərə malikdir. Əgər hələ gəlməmisinizsə, vaxt edib Cənub rayonlarına da üz tutun. Peşman olmayacaqsınız. İllər öncə Aşıq Pənahın oxuduğu mahnını zimzümə etməkdən özünüzü saxlaya bilməyəcəksiniz:

**Lənkəran, Astara, Lerik, Masallı –**
**Möcüzə kimidir, nağıl misallı...**

***Əli NƏCƏFXANLI***
***XQ***

# Bəxtiyar ocağının "əlvan" qonaqları






**Tanınmış ədəbiyyatşünas-alim, akademik, "İstiqlal" ordenli Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi ərəfəsində onun Şəkidəki ev-muzeyində kitab, xalça və rəsm sərgisi açılıb.**

Sərgi Azərbaycan Prezidenti İlham Əliyevin 21 fevral 2025-ci il tarixində şairin yubileyinin qeyd edilməsi haqqında imzaladığı sərəncama uyğun olaraq keçirilən silsilə tədbirlər çərçivəsində, Mahmud Kaşqari adına Beynəlxalq Fondun, Şəki Diyarşünaslıq Muzeyinin, Şəki Rəsm Qalereyasının və Şəki Xan Sarayının birgə təşəbbüsü ilə təşkil olunub.

Bəxtiyar ocağında yaradılmış ekspozisiyada şairin əsərləri əsasında çəkilmiş rəsmlər, ona həsr olunmuş portret xalçalar, bədii irsinə dair və özünün müəllifi olduğu kitablar toplanıb.

Muzeyin direktoru Elşən Zəkəriyyəbəyli yubiley tədbirlərinin Bəxtiyar Vahabzadə ruhuna, yaradıcılığına yüksək ehtiramdan qaynaqlandığını söyləyib, şairin 12 cilddən ibarət "Seçilmiş əsərləri"nin nəşrini Mahmud Kaşqari adına Beynəlxalq Fondun layiqli töhfəsi kimi dəyərləndirib. Şəki Şəhər İcra Hakimiyyətinin başçısının müavini Xəyalə Töhrablı Bəxtiyar Vahabzadənin yubileyinin ev-muzeyində belə təmtəraqla qeyd olunmasını təqdir edib, belə görüşlərin Şəki üçün qürur mənbəyi olduğunu vurğulayıb.

Beynəlxalq Fondun prezidenti, Milli Məclisin deputatı Cavanşir Feyziyev deyib ki, görkəmli şairə məhəbbətlə ərsəyə gələn hər şey yubiley ərəfəsində muzeyi ziyarət edən qonaqlarla bərabər, bütün Bəxtiyarsevərlərə qiymətli bir ərməğandır. "Bəxtiyar Vahabzadə, onun arzuları, poetik ideyaları təkcə Azərbaycana deyil, bütün Türk dünyasına məxsusdur. Təsadüfi deyil ki, Ankaradakı Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) bu ili "Bəxtiyar Vahabzadə İli" elan edib. Fərəhlidir ki, şairin əksər ideyaları, arzuları bu gün həyata keçib. Daha bir qismi də Türk dünyasının inteqrasiyası prosesində uğurla həyata keçməkdədir".

Görüşdə Bəxtiyar Vahabzadənin həyat yolundan və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub. Sərgi Xalq şairinin ata yurdunda avqustun sonunadək davam edəcək.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Şəki**

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

# QƏRAR

**№ 3-27/3-7-7/2025**

**Bakı şəhəri** **28 iyul 2025-ci il**

**Telekommunikasiya sahəsində bir sıra tariflərin tənzimlənməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorlarının telefon (məftilli və simsiz) çəkilişi xidməti ilə bağlı tarif ƏDV daxil olmaqla 30,0 manat təsdiq edilsin. Bu tarifə telefon nömrəsinin verilməsi, habelə 100 metr məsafəyədək telekommunikasiya şəbəkəsinə qoşulma (yenidən qoşulma) ilə bağlı bütün xərclər daxildir.

2. Ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulan sabit telefonlardan (məftilli və simsiz) istifadəyə dair aylıq abunə haqqı ilə bağlı tarif ƏDV daxil olmaqla əhali üçün 3,5 manat, qeyri-əhali üçün 7,0 manat təsdiq edilsin.

3. Ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulan hər bir faks aparatından ölkə daxilində istifadəyə görə aylıq abunə haqqı ilə bağlı tarif ƏDV daxil olmaqla 0,50 manat təsdiq edilsin.

4. Ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulan sabit telefonlardan (məftilli və simsiz) həyata keçirilən şəhərlərarası (rayonlararası) telefon danışıqları ilə bağlı tarif ƏDV daxil olmaqla 1 dəqiqə üçün 0,03 manat təsdiq edilsin. Şənbə, bazar və bayram günləri bütün gün ərzində, digər günlərdə isə saat 00:00-dan 08:00-dək bu tarifə 0,8 əmsalı tətbiq edilsin.

5. Ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulan taksofonlardan həyata keçirilən telefon danışıqları ilə bağlı tarif ƏDV daxil olmaqla 1 dəqiqə üçün şəhərdaxili (rayondaxili) istiqamətdə 0,02 manat, şəhərlərarası (rayonlararası) istiqamətdə 0,05 manat təsdiq edilsin.

6. Ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulan sellülar (mobil) və sabit telefonlardan (məftilli, simsiz və taksofonlar) həyata keçirilən beynəlxalq telefon danışıqları ilə bağlı tarif bütün istiqamətlər üzrə ƏDV daxil olmaqla 1 dəqiqə üçün 0,50 manat təsdiq edilsin.

7. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nömrə daşınması üzrə mərkəzi baza sisteminin fəaliyyətinin təmin edilməsi ilə əlaqədar, ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sellülar (mobil) telefon telekommunikasiya operatorlarının telekommunikasiya şəbəkələrində istifadə etdikləri hər bir nömrəyə görə həyata keçirdikləri illik ödəniş ilə bağlı tarif ƏDV xaric 0,65 manat təsdiq edilsin.

8. Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit və sellülar (mobil) telefon telekommunikasiya operatorlarının telekommunikasiya şəbəkələrində telefon nömrələrinin aktivləşdirilməsi, sabit və sellülar (mobil) telefon nömrəsinin abunəçilərin adından üçüncü şəxslərin adına rəsmiləşdirilməsi, sellülar (mobil) telefon nömrəsinin dublikatının verilməsi, abunəçilərin müraciəti əsasında sabit və sellülar (mobil) telefon nömrəsinin ləğv edilməsi üzrə hər bir əməliyyat ilə bağlı tarif ƏDV xaric 0,30 manat təsdiq edilsin.

9. Bu Qərarın 1-8-ci hissələri ilə təsdiq edilən tariflər "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada verilmiş lisenziya əsasında ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən bütün sellülar (mobil) və sabit telefon telekommunikasiya operatorlarına şamil olunur.

10. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

11. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI

# QƏRAR

**№ 3-27/3-7-6/2025**

**Bakı şəhəri** **28 iyul 2025-ci il**

**Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarına qoşulma və istifadə ilə bağlı tariflərin tənzimlənməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarına qoşulma ilə bağlı tarif telekommunikasiya kanallarının tutumdan asılı olmayaraq ƏDV daxil olmaqla 50,0 manat təsdiq edilsin.

2. "Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarından istifadə ilə bağlı aylıq tariflər" təsdiq edilsin (əlavə olunur).

3. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

4. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 28 iyul tarixli 3-27/3-7-6/2025 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarından istifadə ilə bağlı aylıq tariflər**

| Sıra sayı | Telekommunikasiya kanalının tutumu | Tarif (manat) (ƏDV daxil olmaqla) |
|---|---|---|
| I | II | III |
| 1. | 32 kb/s | 4,00 |
| 2. | 128 kb/s | 9,00 |
| 3. | 256 kb/s | 14,00 |
| 4. | 512 kb/s | 20,00 |
| 5. | 1 mb/s | 30,00 |
| 6. | 2 mb/s | 50,00 |
| 7. | 10 mb/s | 250,00 |
| 8. | 100 mb/s | 400,00 |

"Telekommunikasiya sahəsində bir sıra tariflərin tənzimlənməsi haqqında" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin 2025-ci il 28 iyul tarixli 3-27/3-7-7/2025 nömrəli və "Ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən sabit telefon telekommunikasiya operatorları tərəfindən təşkil olunan ölkədaxili telekommunikasiya kanallarına qoşulma və istifadə ilə bağlı tariflərin tənzimlənməsi haqqında" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin 2025-ci il 28 iyul tarixli 3-27/3-7-6/2025 nömrəli Kollegiya qərarları qəbul edilərək, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir:


## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"Microsoft Fabric F64 (Reserved Capacity)" abunəliyinin satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Microsoft Fabric F64 (ReservedCapacity)" abunəliyinin satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 25 avqust 2025-ci il saat 10.00-dır .

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 497-26-00, daxili 6989.


# Makronun Əlcəzair səhvi

*Fransanın Afrikada mövqeləri zəifləyir*

**Fransa ilə Əlcəzair arasında mürəkkəb olan münasibətlər sürətlə pisləşir. Prezident Emmanuel Makron Əlcəzair diplomatlarına və rəsmi şəxslərinə verilən vizasız giriş imtiyazının ləğv edilməsini istəyir. Əlcəzair də rəsmi Parisin addımlarına cavab qismində adekvat addım atır və diplomatik pasportu olan Fransa vətəndaşlarına da viza rejimi tətbiq edəcəyini açıqlayır.**



Fransa prezidenti Emmanuel Makronun son qərarı Parisin Afrikada getdikcə zəifləyən təsirinin daha bir sübutudur. Makron 2013-cü ildə Fransa ilə Əlcəzair arasında imzalanmış və əlcəzairli diplomatlar ilə rəsmi şəxslərə vizasız giriş imkanı verən razılaşmanın ləğvini tələb edərək, onsuz da gərgin olan münasibətləri daha da kəskinləşdirir. Baş nazir Fransua Bayruya göndərdiyi məktubda Makron qərarını artan diplomatik gərginliklə əsaslandırır, münasibətlərin "qeyri-bərabər" olduğunu iddia edir və Fransanın "daha sərt və prinsipial mövqe" tutmağa çağırır. Ancaq reallıqda bu, Makron administrasiyasının Afrikada nüfuz itkisini kompensasiya etmək üçün uğursuz təzyiq siyasətindən başqa bir şey deyil.

Ümumiyyətlə, son illərdə Paris, xüsusilə Şimali Afrika ölkələrinə qarşı miqrasiya və təhlükəsizlik məsələlərində sərt siyasət yürüdür. Lakin bu strategiya nəticə vermək əvəzinə, Fransa diplomatiyasını zəiflədir və ikitərəfli münasibətləri pozur. Əlcəzairin cavabı da özünü çox gözlətmədi: rəsmi Əlcəzair diplomatik pasportlu Fransa vətəndaşları üçün viza rejimi tətbiq olunacağını açıqladı. Makron 6 avqust tarixli məktubunda iddia edir ki, Əlcəzair münasibətlərin normallaşdırılması çağırışlarına cavab vermir və buna görə də, sazişin ləğvi rəsmiləşdirilməlidir.

Əslində, iki ölkə arasındakı böhran yeni deyil. Aprelin 14-də Əlcəzair Fransanın 12 diplomatını ölkədən çıxarmış, Paris isə cavab olaraq səfirini geri çağıraraq 12 əlcəzairli diplomatı "persona non qrata" elan etmişdi. Əlcəzair Xarici İşlər Nazirliyi xatırlatdı ki, razılaşmanın ləğvini Paris istəyir, məsələni gündəmə gətirən məhz Fransadır: "Paris bu məhdudiyyətlərlə Əlcəzairə cavab vermək fürsəti yaradır". Əlcəzair qəti şəkildə bəyan edir ki, ölkə heç bir formada təzyiqə, hədə-qorxuya və ya şantaja boyun əyməyəcək. Bəyanatda qeyd olunur ki, Fransa ilk gündən böhranı "güc münasibətləri" formatında- göstərişlər, ultimatumlar və birtərəfli tələblərlə idarə edir. Bu isə ikitərəfli münasibətlərə zərbə vurur.

Siyasi müşahidəçilərin sözlərinə görə, Makronun bu addımı Fransa diplomatiyasının strateji planlaşdırma çatışmazlığını bir daha göstərir. Təzyiq və qarşıdurma siyasəti nəticəsində Paris yalnız Əlcəzairlə deyil, bütün Afrikada mövqelərini itirir. Uğursuz xarici siyasət xətti Fransa üçün təkcə nüfuz itkisi deyil, həm də uzunmüddətli strateji itkilər deməkdir. Uzun illər ərzində Şimali Afrikada siyasi, iqtisadi və mədəni nüfuzunu qorumağa çalışan Fransa, son on ildə bir-birinin ardınca buraxdığı diplomatik səhvlər nəticəsində regionda mövqelərini itirməkdədir.

Əlcəzairlə münasibətlərin pisləşməsi bu zəncirin ən son, amma ən təhlükəli halqasıdır. Bu ölkə təkcə Şimali Afrikanın deyil, həm də Sahel bölgəsinin siyasi mərkəzlərindən biridir. Əlcəzair ilə münasibətlərin korlanması Fransa üçün yalnız ikitərəfli əlaqələrin zəifləməsi demək deyil – bu, eyni zamanda Afrikada digər tərəfdaşlara da mesajdır: Paris artıq əvvəlki kimi güvənilən, hörmət edilən oyunçu deyil. Son illərdə Mali, Burkina-Faso, Niger kimi ölkələrdə fransız hərbi kontingentinin çıxarılması və yeni ölkələrin bölgədə nüfuz qazanması Fransa diplomatiyasının Afrikada geri çəkildiyini təsdiqləyir. Əlcəzairlə yaşanan son böhran isə bu prosesin daha da sürətlənəcəyini göstərir.

Makron administrasiyası əməkdaşlıq və dialoq əvəzinə, təzyiq və qarşıdurma siyasətini üstün tutur. Ancaq bu yanaşma Afrikada işlək deyil: burada yumşaq güc, tarixi bağların qorunması və qarşılıqlı etimad əsas dəyərdir. Fransa isə məhz bu dəyərləri itirdiyi üçün nüfuzunu bərpa etməkdə çətinlik çəkir. Buna görə də, Fransa-Əlcəzair münasibətlərinin korlanması təkcə bir diplomatik böhran deyil, Parisin Afrikadakı mövqelərinin strateji zəifləməsinin növbəti mərhələsidir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Suyun içindəki "göy" sirr



**Bir stəkan suya baxanda biz onu şəffaf görürük. Amma niyə okeanlar mavi, göllər yaşıl, buzlaqlar isə süd rəngindədir? Axı su rəngsiz deyildimi? İlk baxışdan adi görünən bu sual, əslində, təbiətin ən zərif sirrlərindən birinə toxunur. Çünki suyun rəngi – təkcə səmanın əksi deyil, özünün daxili fiziki və optik xüsusiyyətlərinin nəticəsidir.**

Təmiz su, əslində, zəif göyümtül rəngə malikdir. Bu rəng, ilk növbədə, işığın su tərəfindən necə udulması və yayılması ilə bağlıdır. Günəş işığı müxtəlif rənglərdən ibarət bir spektrdir: Qırmızıdan bənövşəyiyə qədər. Suyun molekulları bu rəngləri eyni cür qəbul etmir. Qırmızı, narıncı və sarı tonlar suya daxil olduqda tez udulur və dərinliyə getdikcə yox olur. Əvəzində mavi və yaşıl işıq dalğaları daha dərin qatlara qədər nüfuz edə bilir – məhz buna görə də su göy görünür.

Lakin su həmişə mavi olmur. Onun rəngi həm də tərkibindən asılı olaraq dəyişə bilər. Məsələn, yaşılımtıl su – fitoplankton və yosunların çox olduğu yerlərdə müşahidə olunur. Bu canlılar yaşıl piqmentlərə malikdir və işığın yaşıl dalğalarını əks etdirirlər.

Qəhvəyi su-meşə göllərində və ya torflu bataqlıqlarda olur. Burada suya üzvi maddələr qarışır və onun rəngi torpaq tonuna çevrilir.

Süd kimi bulanıqlıq – bu, adətən, buzlaqların əriməsi zamanı yaranan suda olur. Buzların daşıdığı mikroskopik gil və mineral hissəciklər işığı səpələyərək suya süd rəngi verir.

Hər bir rəng suyun həyatına və tarixçəsinə dair ipucu verir: Tərkibi, mənşəyi, yaşadığı ekosistem barədə. Suyun rəngi yalnız fizikaya yox, həm də bizim onu necə qəbul etdiyimizə bağlıdır. Günəşin bucağı, havanın şəffaflığı, fon səthi – bütün bunlar insan gözünün suyun rəngini necə gördüyünə təsir edir. Bəzən eyni su bəzən yaşıl, bəzən göy, bəzən isə boz görünə bilər. Rəng burada həm də emosional bir təəssürat yaradır.

Suyun rəngi - onun sadəcə fiziki xassəsi deyil, həm də təbiətin incə poetikasıdır. Biz onun şəffaflığında rəng axtarırıq və unuduruq ki, şəffaf olan belə rəngsiz deyil. Elmdə olduğu kimi, həyatda da: Bəzən görünməz olan ən gözəl rəngə malikdir.

*Hazırladı:*
*P.ƏMİRCANOV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 165 (30859) 9 avqust 2025-ci il, şənbə

## İDMAN

### Cüdo millimiz məşqlərə başlayıb



**Azərbaycanın kişi cüdoçulardan ibarət millisi Quba Olimpiya İdman Kompleksində gün ərzində iki dəfə olmaqla intensiv məşqlərə cəlb edilib.**

Toplanışa yığmanın baş məşqçisi Riçard Trautman, böyük məşqçilər Elxan Məmmədov və Robert Kravçik, həmçinin fiziki hazırlıq üzrə böyük məşqçi Həsrət Məhəmmədov rəhbərlik edirlər.

Milli komanda hazırlığın növbəti hissəsini Bakıda davam etdirəcək. Ardınca cüdoçular sentyabrın 6-19-u aralığında Braziliyanın San-Paulu şəhərində təşkil olunacaq beynəlxalq yarışda iştirak edəcəklər.

### AFFA nümayəndəsi UEFA-dan təyinat alıb



**AFFA-nın Sosial Ətraf mühit dayanıqlığı üzrə meneceri Kifayət Mustafayeva UEFA-dan təyinat alıb. Qurumdan mətbuata verilən məlumata görə, o, Konfrans Liqasının III təsnifat mərhələsində Albaniyada "Eqnatiya" ilə Sloveniyanın "Olimpiya" komandası arasında keçiriləcək cavab oyununun UEFA nümayəndəsi olacaq.**

Qarşılaşma avqustun 14-də Albaniyanın Rroqojine şəhərində yerləşən "Eqnatia" stadionunda baş tutacaq.

### Ronaldudan "het-trik"



**Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun hücumçusu Kriştianu Ronaldu Portuqaliyanın "Riu Ave" komandası ilə yoxlama oyununda "het-trik" edib.**

Portuqaliyalı 44, 63 və 68-ci dəqiqələrdə fərqlənib. Penaltidən 3-cü qola imza atan Ronaldu daha sonra əvəzlənib.

Qeyd edək ki, Ronaldunun iki yoxlama görüşündə 4 qolu var. Bundan əvvəl o, iyulun 30-da Fransanın "Tuluza" komandası ilə matçda (2:1) fərqlənib.

"Əl-Nəsr" – "Riu Ave" görüşü 4:0 hesabı ilə başa çatıb. Qarşılaşmada hesabı fransalı müdafiəçi Məhəmməd Simakan açıb.

*MH ACIXANLI*
*XQ*

*Dünya mənim, dünya sənin...*

# Salam, baba ocağı!



**Köhnə, tanış yolla, ata-baba yurduma səmt götürmüşəm. Həsrətli addımlarla yeriyirəm. Yolu ot basıb. Nə gələn var, nə də ki gedən. Səs-səmir də eşidilmir...**

Bir vaxtlar bu məkan bizlərin – Həsənovların haylı-küylü yuvası idi. Bu mülk ayrıca birmərtəli, bir də ona bitişik ikimərtəbəli, dördotaqlı 2 evdən ibarət idi. Həyətində tövlə, hin, dirrik sahəsi də var idi. İri tut və ərik ağacı həm kölgəlik, həm yaraşıq, həm də bar-bərəkət idi.

Divarı bişmiş kərpiclə hörülmüş quyu ailənin yeraltı bulağı – dirilik çeşməsi idi. Yayın qızmar dövründə də buz kimi bol suyu olurdu. Məhəllə adamları da suyu buradan çəkib aparırdılar. Birmərtəbəli evin qabaq küncündə ocaqxana, təndirxana, içərisində isə bir tərəfdə buxarı, ön divarda qədimi qaydada taxçalar qurulmuşdu.

İndi niyə suyu sovulmuş dəyirmana bənzəyir bu yerlər?.. Burada babam Hacı Zərbi oğlu Məşədi İsa həyat yoldaşı Məşədi Səkinə Şahbaz qızı ilə mehriban ömür sürmüş, o dövr üçün rahat, geniş evdə böyük bir külfət sahibi omuşdu. Xəyalımda o günlərin hay-harayı çağlayır, qarşımda isə səssizlikdən qulaq tutulan bir mənzərə boynunu büküb...

Doğmalarımı uca səslə haraylayıram. Hay verən, eşiyə çıxan görünmür ki, görünmür. Ən yaxın qonşunu – həyat yoldaşı müharibədən qayıtmayan seyid nənəni, Mir Hadının, Mir Mehdinin, Mir Həsənin, Mir Salehin, Zəhranın və Rahilənin anasını – Quran oxuyub, namaz qılan ağbirçəyimizi səsləyirəm: Ay Gülzar xala, bu evin yiyəsi, nənəm Məşədi Səkinə hanı? Hayıma cavab gəlmir! Səs-səmir də eşidilmir...

Evimizin sağ çiynindəki evdəkilərə – Əlinin, Ayazın, Nağının, elə bütün tay-tuşumun nənəsi və maması bildiyimiz Xurşud nənəyə, Dilşad mamaya üz tuturam: – Qonşular, bu evin yiyəsi hanı? Nənəm Məşədi Səkinə, anam Xatun haraya gediblər Sualıma kimsə dillənmir. Yoxsa bizim evin ağbirçəyi, nənəmiz Məşədi Səkinə 42-ci ildə müharibəyə yola saldığı əsgər övladı Hacıbalanı aramaq üçün gedib, şəhid yarasını sarımaq üçün yola çıxıb?..

Daha bir qonşun – Suğra xalanın, Həmidin, Tofiqin, Püruzənin anasına yalvarışla dillənirəm:- Ay qonşu, bu evin yiyəsi hanı? Nə dinən var, nə eşiyə çıxan!..

Bu qonşuların həyət-bacaları ümumidir. Yəni həyətyanı sahələr bir-birindən ayrılmayıb – nə çəpər var, nə hasar. Bu məhəllədə kimsə kimsənin toyuğuna "kiş!"- deyib, çımxırmır. Bir evin toyuğu digər evin hinində yumurtlayır. Bu həyətlərdə hətərən-pətərən eşidilməzdi. Xüsusilə qadınlar can deyib, can eşidərdilər. İndi həyətlər də boşalıb. Onların çal-çağırlı günləri unudulub, qəhətə çıxıb. Axı kimsəsizdir, bu yurdlar. Ötən sakinlər hərə bir tərəfə köç edib – köçəri qaranquşlar sayağı. Nə bir inni-cinni, nə bir quş qalıb... Amma bir evin eyvanında onillər qabaq gördüyüm qaranquş yuvası məni heyrətləndirdi... Bu gün də bərqərardır quşların əcdadının yuvası. İçərisindən dimdiyinin sarısı hələ solmayan 2-3 qaranquş balası civiltiynən boylanır. Deyəsən bizləri qınayırlar... Görünür, onların böyükləri neçə arxadandönən əcdadlarının instikti ilə bu yerlərə sevinc-sədaqətlə qayıtmışlar?..

Bizlər onlardan ibrət götürməmişik. Elə-obaya nankor çıxmışıq. Geriyə – dədə-baba yurduna dönməmişik. Bu nəxələflik üzündən İndi həyət-baca, boşalmış, evlər boyunlarını büküb, küskün-küskün yollara boylanır... Ürək gərəkdir, bu həsrətli mənzərəyə tab gətirsin....

Çevrilib doğma evimizə bir də nəzər salıram. Ah! Öz doğma evimiz həsrətə tab gətirməyib, çöküb-köhnəlib, kimsəsiz qalıb. Övlad, nəvə-nəticə hənirtisinə, gülüş-sevincinə həsrətdir. Özüm kimi qocalıb, taqətdən düşüb. Elə bil nəyinsə-kiminsə qarşısında diz çöküb, səcdə eləyir... Nədən ki, qənşərində təndir alovlandırılmır, ocaq qalanmır...

Bu dəm bir şeir misralarını xatırlayıram:

**Bir zaman hər kəsin diqqətin çəkən**
**O xoşbəxt ocaqdan bircə daş qalıb.**
**Köhnə kirəmitlər dərddən çat verib,**
**Fikirdən dirəyin dizi bükülüb.**
**Bir paslı qıfıla əmanət olan**
**Qapının gözləri yola dikilib.**

Xəyallardan ayrılıb düşünürəm ki, on illər boyu qazandığım uğurlara sevinə-sevinə baba ocağımdan nə qədər uzaqlaşmışam. Nə yaxşı ki, bu ocağa sevgim, bağlılığım zərrə qədər azalmayıb. Mənə həmin uğurları qazandıran da, şübhəsiz, bu ocağın tərbiyəsi, verdiyi güc-təpər olub. Odur ki, əlvida demirəm: Salam, baba ocağı!

*Rafiq HƏSƏNOV,*
*"Xalq qəzeti"nin keçmiş əməkdaşı*

# "Sabah" səfərdə, "Araz-Naxçıvan" isə doğma meydanda məğlub oldu

**UEFA Konfrans Liqasında ölkəmizi təmsil edən "Sabah" komandası III təsnifat mərhələsində ilk oyununu keçirib. Həmyerlilərimizin Bolqarıstanda "Levski" futbolçularına qarşı keçirdiyi matç meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Oyunda yeganə qolu matçın əsas vaxtına əlavə edilmiş sonuncu, 8-ci dəqiqədə Borislav Rupanov vurub.**





Oyundan sonra keçirilən mətbuat konfransında "Sabah"ın baş məşqçisi Valdas Dambrauskas deyib:

"Düşünürəm ki, uzun müddət "Levski"yə qarşı yaxşı mübarizə apardıq. Rəqib səviyyəli komandadır, amma ilk hissədə bizim daha çox nəzarətimiz olan anlar var idi və bir az daha soyuqqanlı ola bilsəydik, daha yaxşı nəticə əldə edə bilərdik".

Xatırladaq ki, tərəflər arasında cavab oyunu avqustun 14-də Bakıda baş tutacaq. Bu komandaların qalibi pley-off mərhələsində AZ (Alkmar, Niderland) – "Vaduts" (Lixtenşteyn) cütünün güclüsü ilə münasibətlərə aydınlıq gətirəcək.

***

Ölkəmizi UEFA Konfrans Liqasında təmsil edən digər komanda "Araz-Naxçıvan" isə III təsnifat mərhələsində ilk oyununu Bakıda keçirib. Kiprin "Omoniya" kollektivinə qarşı keçirilən oyun rəqibin böyük hesablı qələbəsi ilə yekunlaşıb–4:0.

Qolları 13 və 22-ci dəqiqələrdə Loizos Loizu, 55-ci dəqiqədə Evandro və 58-ci dəqiqədə isə Stefan Yovetiç vurublar.

"Araz-Naxçıvan"ın baş məşqçisi Elmar Baxşıyev görüşdən sonra məğlubiyyəti belə şərh edib: "Komanda olaraq zəif oynadıq. Ardıcıl toplar buraxmaq futbolçulara mənfi təsir göstərdi, fiziki olaraq zəif deyildik. Sadəcə, alınmadı. Səhvlərdən dərs çıxarmağa çalışacağıq. Dəstəyə görə azarkeşlərə təşəkkür edirəm. Təəssüf ki, onları sevindirə bilmədik".

Qeyd edək ki, bu komandalar arasında da cavab görüşü avqustun 14-də Kiprdə keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*HAVA*

## Abşeronda yağmursuz, bəzi dağlıq ərazilərdə yağış...

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 23-27, gündüz 32-36 isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi normadan aşağı - 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər arabir duman olacağı ehtimalı var. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 22-26, gündüz 33-38, dağlarda gecə 15-20, gündüz 23-28 dərəcə isti olacağı proqnozlaşdırılır.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3406
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00